## Əfqanıstan ərazisindən Özbəkistana raket atılıb



**Özbəkistan ərazisinə Əfqanıstan istiqamətindən raket atılıb.**

APA-nın xəbərinə görə, bu barədə Özbəkistanın Xarici İşlər Nazirliyi məlumat yayıb.

Məlumatda bildirilir ki, 5 iyul tarixdə saat 16.20-də Termez şəhərinə Əfqanıstan ərazisindən atıldığı ehtimal edilən 5 raket düşüb. Hadisə nəticəsində heç bir partlayış və insan tələfatı qeydə alınmayıb. 4 şəxsi evə yüngül zərər dəyib. İnsidentin səbəblərini araşdırmaq üçün Əfqanıstan tərəfi ilə müzakirələr aparılır.



## "Basqal" qoruğu abadlaşdırılacaq

**İsmayıllı rayonunda yerləşən "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğunun abadlaşdırılması nəzərdə tutulur.**

Bu barədə Dövlət Turizm Agentliyi xəbər verir.

Məlumata görə, artıq bununla bağlı hazırlıq görülür və abadlıq işlərini həyata keçirəcək şirkət müəyyən edilib.




## Azərbaycanın növbəti qələbəsi...

### ATƏT PA-da ermənilərin tələbi rədd edildi

**"Dağlıq Qarabağ münaqişəsi" və Minsk qrupunun "dirçəldilməsi", o cümlədən erməni terrorçularının dərhal azad olunması tələbi ATƏT Parlament Assambleyasında rədd edilib.**

Erməni nümayəndə heyətinin rəhbəri Eduard Ağacanyanın Siyasi məsələlər və təhlükəsizlik üzrə ümumi komitənin Qətnamə layihəsinə daxil etmək məqsədilə hazırladığı dəyişiklik qəbul edilməyib. Məlum olduğu kimi, Azərbaycan nümayəndə heyəti cari ilin iyulun 2-6-da Böyük Britaniyanın Birminqem şəhərində keçirilən ATƏT PA-nın illik sessiyasında iştirak edir. İllik sessiyada erməni nümayəndə heyəti və ermənipərəst isveçli deputat Bjorn Soder tərəfindən ölkəmizin maraqlarına zidd olan dəyişiklik irəli sürülüb.

(səh.2)


❒ № 117 (5639), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 6 iyul 2022-ci il (çərşənbə)




## NATO-nun Baş katibi: "FETÖ-yə qarşı birlikdə mübarizə aparmalıyıq"

**"Həm daha təcavüzkar Rusiya, həm də FETÖ-yə qarşı birlikdə mübarizə aparmaq lazımdır".**

"Report" "Anadolu" agentliyinə istinadən xəbər verir ki, bunu NATO-nun Baş katibi Yens Stoltenberq İsveçin xarici işlər naziri Ann Linde və Finlandiyanın xarici işlər naziri Pekka Haavisto ilə bu iki ölkənin alyansa üzv olması ilə bağlı protokolların imzalanmasına həsr edilən birgə mətbuat konfransında bildirib.

O, Türkiyə, Finlandiya və İsveçə tutduqları konstruktiv mövqeyə görə təşəkkür edib.

(səh.2)

## Ərdoğan iyulun 19-da İrana səfər edəcək

### Görüş zamanı tərəflərin regional məsələləri müzakirə edəcəyi gözlənilir



**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan iyulun 19-da İrana səfər edəcək.**

Bu barədə Türkiyə KİV-ləri məlumat verir.

R.T.Ərdoğanın birgünlük səfəri çərşivəsində iranlı həmkarı İbrahim Rəisi ilə görüşü nəzərdə tutulur.

Görüş zamanı tərəflərin regional məsələləri müzakirə edəcəyi gözlənilir.

# Məmurların sayında ixtisarlar aparılmalıdır

### Azərbaycanda qənaət rejiminin konturları görünür, amma daha da genişləndirilməlidir



**Hökumət qənaət rejiminə keçməyə çalışır. Son günlərdə qəbul edilən bəzi qərarlara baxsaq, qənaət rejiminin konturlarını görmək mümkündür.**

Məsələn, Nazirlər Kabineti "Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" qərarında dəyişiklik edib.

Bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb. Dəyişikliyə əsasən, Təhsil Nazirliyinə ayrılan xidməti minik avtomobillərinin say həddi 75-dən 23-ə endirilib.

(səh.3)

## Metroda küt alətlə insanları hədələyən şəxs saxlanılıb

### Roman Məmmədov əməlini etiraf edərək bu tip videoları sosial şəbəkələrdə məşhurlaşmaq məqsədilə çəkdiyini bildirib



**Dünən "TikTok" sosial şəbəkəsi üzərindən bir nəfərin parçaya bükülmüş halda baltaya oxşar əşyanı nümayiş etdirərək insanları hədələdiyini əks etdirən görüntü paylaşılıb.**

Bununla əlaqədar DİN Mətbuat Xidmətinin bölmə rəisi Zeyni Hüseynov bildirib ki, qeyd olunan videonu paylaşan şəxsin 39 yaşlı Roman Məmmədov olması müəyyən edilib və saxlanılıb.

(səh.2)



## ABŞ Konqresinin üzvləri Ermənistana səfəri ləğv ediblər

**ABŞ Konqresinin üzvləri Ermənistana iyunun 30-na nəzərdə tutulan səfəri ləğv ediblər.**

"Report" xəbər verir ki, məlumatı "Hraparak" yayıb.

Bildirilib ki, nümayəndə heyətinin Ermənistan parlamentinin sədri Alen Simonyan və başqa fraksiyaların başçıları ilə görüşləri planlaşdırılsa da, səfər ləğv olunub.

Belə ki, konqresmenlər son anda Ermənistan parlamentinin sədrinə müraciət edərək hazırda səfər edə bilməyəcəklərini bildiriblər. Onlar səfəri ləğv etmələrinin səbəbini açıqlamayıblar.

## 1 nəfəri vəfat edib

### Azərbaycanda daha 49 nəfər koronavirusa yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 49 yeni yoluxma faktı qeydə alınıb, 12 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 793 437 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 783 465 nəfər müalicə olunaraq sağalıb, 9 718 nəfər vəfat edib, aktiv xəstə sayı 254 nəfərdir.

*Ölkədə son sutka ərzində 2 403, hazırkı dövrədək isə 6 974 930 test aparılıb.*

## Qazaxda gənc oğlan Kürdə batıb

### Dalğıc-axtarış qrupu axtarışlara cəlb olunub



**Fövqəladə Hallar Nazirliyinin (FHN) "112" qaynar telefon xəttinə Kür çayının Qazax rayonu, Yuxarı Salahlı kəndi ərazisindən keçən hissəsində 2006-cı il təvəllüdlü Quliyev Eldar Camaləddin oğlunun batması barədə məlumat daxil olub.**

FHN xəbər verir ki, Nazirliyin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupu axtarışlara cəlb olunub.



## Meymunçiçəyinin Azərbaycanda yayılması qaçılmazdır

### Ölkəyə testlərin gətirilməsi də müəyyən hazırlıq məqsədi güdür

(səh.3)

## Quru sərhədlərin açılmamasına dörd əsas səbəb göstərilir

### Bütün hallarda yol açılmalı, müvafiq dövlət orqanları səfərbər olunmalı və cavabdehlik daşımalıdır



(səh.4)

# Kritik informasiya infrastrukturu obyektlərinin reyestri aparılacaq



**Azərbaycanda kritik informasiya infrastrukturu obyektlərinin reyestri aparılacaq.**

**Bu, Prezident İlham Əliyevin ”İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” qanuna dəyişikliyi təsdiqləməsi ilə mümkün olub.**

Dəyişikliklə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) kritik informasiya infrastrukturu obyektlərinin reyestrini aparacaq. Reyestrin strukturu, yaradılması və aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən ediləcək.

Qanuna əlavə edilən yeni maddədə isə kritik informasiya infrastrukturunun informasiya təhlükəsizliyini idarəetmə sistemi müəyyənləşir.

Belə ki, kritik informasiya infrastrukturu subyektləri onlara məxsus olan kritik informasiya infrastrukturuna kibertəhdidlərin, kiberhücumların, kiberinsidentlərin, habelə bu əməllərin törədilməsinə cəhdlərin aşkarlanması, qarşısının alınması və zərərli nəticələrinin aradan qaldırılması məqsədilə müvafiq infrastrukturun informasiya təhlükəsizliyini idarəetmə sistemini təşkil etməli və onun fəaliyyətini təmin etməlidirlər.

Kritik informasiya infrastrukturunun informasiya təhlükəsizliyini idarəetmə sisteminin tərkibi və fəaliyyət qaydası kritik informasiya infrastrukturunun təhlükəsizliyinə dair ümumi tələblər əsasında, kritik informasiya infrastrukturu subyektinin fəaliyyət xüsusiyyətləri nəzərə alınmaqla, onun tərəfindən müəyyən edilir və kritik informasiya infrastrukturu obyektlərinin reyestrinə yerləşdirilir. Səlahiyyətli orqan həmin idarəetmə sistemlərinin kritik informasiya infrastrukturunun təhlükəsizliyi üzrə tələblərə uyğunluğunun təmin olunmasını kritik informasiya infrastrukturu subyektindən tələb edə bilər.

Kritik informasiya infrastrukturu subyekti səlahiyyətli orqanla qarşılıqlı əlaqələrin operativliyini təmin etmək məqsədilə kritik informasiya infrastrukturunun təhlükəsizliyi üzrə məsul şəxs təyin edir və bu barədə məlumatı kritik informasiya infrastrukturu obyektlərinin reyestrinə yerləşdirir.

Kritik informasiya infrastrukturu subyektləri onlara məxsus olan kritik informasiya infrastrukturuna kibertəhdidlər, kiberhücumlar, kiberinsidentlər, habelə bu əməllərin törədilməsinə cəhdlər barədə məlumatları kritik informasiya infrastrukturunun təhlükəsizliyi üzrə tələblərlə müəyyən edilmiş qaydada səlahiyyətli orqana göndərməlidirlər.

## NATO-nun Baş katibi: “FETÖ-yə qarşı birlikdə mübarizə aparmalıyıq"

**”Həm daha təcavüzkar Rusiya, həm də FETÖ-yə qarşı birlikdə mübarizə aparmaq lazımdır”.**

”Report” ”Anadolu” agentliyinə istinadən xəbər verir ki, bunu NATO-nun Baş katibi Yens Stoltenberq İsveçin xarici işlər naziri Ann Linde və Finlandiyanın xarici işlər naziri Pekka Haavisto ilə bu iki ölkənin alyansa üzv olması ilə bağlı protokolların imzalanmasına həsr edilən birgə mətbuat konfransında bildirib.

O, Türkiyə, Finlandiya və İsveçə tutduqları konstruktiv mövqeyə görə təəşkkür edib.




Baş katib Madrid sammitində imzalanan üçtərəfli sənədə işarə edərək terrora qarşı mübarizənin NATO-nun gündəliyində prioritet olduğunu bildirib:

”Ağıl və qəlb fəth etməyin ən yaxşı yolu həm daha aqressiv Rusiya, həm də FETÖ terroru ilə qarşılaşdığımız bütün təhlükəsizlik təhdidlərinə qarşı birlikdə mübarizə aparmaqdır”.

*Qeyd edək ki, Türkiyə NATO-ya üzv olmaları üçün İsveç və Finlandiyadan terrorçu PKK-çılara ölkədə sığınacaq verməməsi və onların fəaliyyəti üçün şərait yaratmamasını tələb edir. Rəsmi Ankara İsveçdən 73 terrorçunun təhvil verilməsini istəyir.*



## Ceyhun Bayramov Şuşa haqqında əsər yazan alman professorla görüşüb

Nazir, kitabın gələcəkdə digər xarici dillərə də tərcümə edilməsinin əhəmiyyət kəsb etdiyini qeyd edib

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Almaniyanın Qiesen Universitetinin dosenti, alim Mixael Reynhard Hessi qəbul edib.**

**Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi xəbər verir.**

Görüşdə alim M.Hess ”Şuşanın irsi. Azərbaycanın mədəniyyət paytaxtının tarixi və inkişaf yolu” adlı kitabını nazir Ceyhun Bayramova təqdim edib. Alim qeyd edib ki, kitabı yazmaqda əsas məqsədi Qarabağın və Şuşanın Azərbaycanın ədəbiyyat və mədəniyyət tarixindəki zəngin irsini geniş oxucuların diqqətinə çatdırmaqdır. O, kitabın ölkəmizlə bağlı elmi araşdırmalar aparan şəxslər üçün etibarlı mənbə qismində çıxış edəcəyini bildirib.

Nazir Mixael Hessə təşəkkürünü ifadə edib. O, Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı xarici mütəxəssislər, elm adamları tərəfindən araşdırmaların aparılmasının vacibliyini vurğulayıb və bu mənada kitabın dəyərinin yüksək olduğunu söyləyib. Nazir, alman dilində dərc olunan kitabın gələcəkdə digər xarici dillərə də tərcümə edilməsinin əhəmiyyət kəsb etdiyini qeyd edib.

Ceyhun Bayramov alman alimi Mixael Hessə gələcək fəaliyyətində uğurlar arzu edib.



## Kiber Təhlükəsizlik Əməliyyatları Mərkəzi istifadəyə verilib

Müdafiə naziri komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənov iyulun 5-də Müdafiə Nazirliyinin Rabitə, İnformasiya Texnologiyaları və Kibertəhlükəsizlik Baş İdarəsinin Kiber Təhlükəsizlik Əməliyyatları Mərkəzinin açılışında iştirak edib.**

Müdafiə Nazirliyindən ”Şərq”ə verilən məlumata görə, Baş İdarə rəisi general-mayor Məmməd Eminov müasir avtomatik idarəetmə sistemləri ilə təchiz olunmuş mərkəzin fəaliyyəti barədə müdafiə nazirinə məruzə edib. Bildirilib ki, ən yeni texnoloji avadanlıqla təchiz edilmiş mərkəzdə informasiya-kommunikasiya texnologiyaları və komanda-idarəetmə sistemlərinin davamlı izlənilməsi və idarə edilməsi, təhdidlərin vaxtında aşkar olunması, rəqəmsal araşdırmalar, elektron təhlükəsizlik yoxlamalarının aparılması və digər fəaliyyətlər icra ediləcək.

Müdafiə naziri Azərbaycan Ordusunda kibertəhlükəsizlik tədbirlərinin daha da təkmilləşdirilməsi ilə əlaqədar komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

Azərbaycan Ordusunun informasiya-kommunikasiya texnologiyaları mühitinə fasiləsiz müşahidə və nəzarəti həyata keçirməklə kibertəhlükəsizliyi təmin edəcək.

Qeyd olunub ki, inkişaf etmiş ölkələrin kibertəhlükəsizlik sahəsində qabaqcıl təcrübəsi nəzərə alınmaqla yaradılan

# Türkiyəyə verilən vədə əməl olunmalıdır

İsveç və Finlandiyanın NATO-ya tam üzvlük prosesi uzun çəkəcək

Üzv ölkələrin NATO yanında daimi nümayəndələri İsveç və Finlandiyanın təşkilata üzvlüyünə dair protokolu imzalayıb. Baş katib Yens Stoltenberq iyulun 5-dən etibarən İsveç və Finlandiyanın NATO-ya dəvətli ölkələr sayılacaqlarını və alyansın işinə qatıla biləcəklərini əlavə edib. Finlandiya və İsveç xarici işlər nazirləri hərbi bloka üzvlük protokolunu imzalayıb. Mərasim NATO-nun Brüsseldəki qərargahında baş tutub. Stoltenberq hər iki ölkənin alyansa üzvlüyünün ratifikasiyası prosedurunun başlandığını qeyd edib.

**Politoloq Azər Qasımov ”Şərq”ə bildirib ki, İsveç və Finlandiya məsələsi Rusiyanın Ukraynaya hücumundan sonra aktuallaşıb. Ekspert vurğulayıb ki, İsveç və Finlandiyanın özlərini təhlükəsiz hiss etməsi üçün NATO-ya üz tutmaları geosiyasi baxımdan məcburi hala gəlib:** ”Rusiyanın bu addıma hansı reaksiya verməsindən çox, NATO və bu iki ölkənin Moskvanı fakt qarşısında qoyması daha əhəmiyyətli rol oynadı. Rusiya buna hazırlıqsız və zəif anında yaxalandı. Kreml İsveç və Finlandiyanın NATO-ya üzvlüyünə demək olar ki, heç bir ciddi reaksiya göstərə bilmədi. Sadəcə prosesi izləyəcəklərini, bu ölkələrə NATO qoşunları yerləşdiriləcəyi halda adekvat reaksiya göstərəcəklərini dedilər. Eyni zamanda bu ölkələrin NATO-ya üzv olmalarının Rusiya üçün təhlükə yaratmadığını söylədilər. Təbii ki, bu, çarəsizlikdən deyilən sözlər idi. Rusiyanın davam edən Ukrayna müharibəsi fonunda yenidən ikinci və üçüncü cəbhə açmaq gücü yoxdur”.



*A.Qasımov bildirib ki, İsveç və Finlandiyanın NATO-ya tam üzvlük prosesinin, yəni ratifikasiya prosesinin uzanması onların Türkiyəyə verdikləri sözlərin nə qədər tez yerinə yetirilməsindən asılı olacaq:* ”Təbii ki, üç ölkə arasında imzalanan müqavilənin şərtlərinə əməl olunmazsa, Türkiyə parlamentində bunun ratifikasiyası uzanacaq. NATO-nun Finlandiyaya qoşun yerləşdirməsi hələlik olmayacaq. Süni şəkildə NATO-Rusiya gərginliyini artırmaq Qərbə də sərf etmir. Onsuz da NATO Ukraynada Rusiya ilə hesablaşmaq üçün yaxşı meydan və mühit əldə edib”.

**İsmayıl**



# Metroda küt alətlə insanları hədələyən şəxs saxlanılıb

Roman Məmmədov əməlini etiraf edərək bu tip videoları sosial şəbəkələrdə məşhurlaşmaq məqsədilə çəkdiyini bildirib

**Dünən ”TikTok” sosial şəbəkəsi üzərindən bir nəfərin parçaya bükülmüş halda baltaya oxşar əşyanı nümayiş etdirərək insanları hədələdiyini əks etdirən görüntü paylaşılıb.**

Bununla əlaqədar DİN Mətbuat Xidmətinin bölmə rəisi Zeyni Hüseynov bildirib ki, qeyd olunan videonu paylaşan şəxsin 39 yaşlı Roman Məmmədov olması müəyyən edilib və saxlanılıb.

İlkin dindirilmə zamanı R.Məmmədov törətdiyi xuliqanlıq əməlini etiraf edərək bu tip videoları sosial şəbəkələrdə məşhurlaşmaq məqsədilə çəkdiyini, fərdi qaydada təmir-tikinti işləri ilə məşğul olduğunu və uzun müddətdir ki, o da digər ustalar kimi təmir alətləri ilə metrodan istifadə etdiyini bildirib. (Trend)

”Bu gün insanlar ictimai nəqliyyatdan - avtobuslardan, eləcə də metrodan istifadə edərkən üzərində olan belə təsərrüfat alətləri ilə işə gedib-gəlirlər. Metrodakı müşahidə kameralarına da baxdıqda həmin şəxsin gündəlik olaraq əşyalarının polis əməkdaşları tərəfindən yoxlanıldıqdan sonra metroya daxil olması görünür. Odur ki, belə əşyaların metroya keçirilməsi orada xidmətdə olan polis əməkdaşlarının nəzarətinin zəif olması anlamına gəlməməlidir”, - açıqlamada deyilir.

Hazırda faktla bağlı cinayət işi başlanılıb, istintaq tədbirləri həyata keçirilir.

# Azərbaycanın növbəti qələbəsi...

ATƏT PA-da ermənilərin tələbi rədd edildi

**İsmayıl Qocayev**

**“Dağlıq Qarabağ münaqişəsi” və Minsk qrupunun “dirçəldilməsi”, o cümlədən erməni terrorçularının dərhal azad olunması tələbi ATƏT Parlament Assambleyasında rədd edilib. Erməni nümayəndə heyətinin rəhbəri Eduard Ağacanyanın Siyasi məsələlər və təhlükəsizlik üzrə ümumi komitənin Qətnamə layihəsinə daxil etmək məqsədilə hazırladığı dəyişiklik qəbul edilməyib.**



“Əldə etdiyimiz uğurlar rəsmi Bakının mövqeyini daha da gücləndirəcək. ATƏT PA-nın qərarı Qərbin də Azərbaycanın mövqeyini dəstəklədiyini, bizim yanımızda olduqlarını göstərir”

Məlum olduğu kimi, Azərbaycan nümayəndə heyəti cari ilin iyulun 2-6-da Böyük Britaniyanın Birminqem şəhərində keçirilən ATƏT PA-nın illik sessiyasında iştirak edir. İllik sessiyada erməni nümayəndə heyəti və ermənipərəst isveçli deputat Bjorn Soder tərəfindən ölkəmizin maraqlarına zidd olan dəyişiklik irəli sürülüb. Qeyd olunan düzəlişin müzakirəsi zamanı Azərbaycan nümayəndə heyətinin rəhbəri Azay Quliyev erməni nümayəndə heyətinin təklifinə tutarlı arqumentlərlə cavab verərək Assambleyanı müharibədən sonra mövcud olan reallığa zidd dəyişikliyi qəbul etməməyə çağırıb. Azay Quliyev həbs edilmiş erməni hərbçilərinin müvafiq qanunvericiliyə uyğun olaraq cəzalandırıldığını, bununla bağlı Avropa İnsan Haqları Məhkəməsinin və Beynəlxalq Ədalət Məhkəməsinin müvafiq qərarlarının olduğunu əsas gətirib. Soderin təklifi səsə qoyulsa da, 24 əleyhinə, 12 lehinə olmaqla rədd edilib. Ermənilərin Azərbaycana qarşı qətnamə bəndinin qəbul edilməsi ilə bağlı üçüncü cəhdləri də nəticə verməyib. Beləliklə, Böyük Britaniyanın Birminqem şəhərində işini davam etdirən ATƏT PA-nın illik sessiyasında Ermənistan tərəfindən Azərbaycan əleyhinə hazırlanan və təqdim olunan bütün düzəlişlərin və təkliflərin qarşısı qətiyyətlə alınıb.

**Millət vəkili Ceyhun Məmmədov “Şərq”ə bildirib ki, 44 günlük Vətən müharibəsinin başa çatmasından iki ilə yaxın zaman keçsə də, ermənilər məkirli niyyətlərindən, təxribatlarından əl çəkmirlər.** Deputatın sözlərinə görə, beynəlxalq platformalarda, nüfuzlu qurumlarda Azərbaycanın haqlı mövqeyinin qəbul olunması, ermənilərin əsassız təşəbbüslərinin rədd edilməsi çox önəmlidir: ”Bu, erməni yalanlarının ifşa olunması, ermənilərin uydurma təbliğatları üzərində Azərbaycanın növbəti qələbəsidir. Həm də dövlətimizin həyata keçirdiyi uğurlu xarici siyasətin göstəricisidir. Sözsüz ki, ermənilərin pozucu təşəbbüsləri ilə zaman-zaman üzləşəcəyik. Amma əldə etdiyimiz uğurlar rəsmi Bakının mövqeyini daha da gücləndirəcək. ATƏT PA-nın qərarı Qərbin də Azərbaycanın mövqeyini dəstəklədiyini, bizim yanımızda olduqlarını göstərir. Ermənilərin sülh prosesini pozan, danışıqlara zərbə vuran təxribatçı cəhdlərinin qarşısının alınması vacibdir. İrəvan hökuməti bundan nəticə çıxartmalı, təxribat xarakterli təşəbbüslərə son qoymalıdır. Ermənistan gələcəyə baxmağı bacarmalı, münasibətlərin normallaşması üçün səylər göstərməlidir”.



# Qarabağ və Şərqi Zəngəzur İran üçün iqtisadi fürsətlər pəncərəsidir

## Aqşin Kərimov: "Ona görə də Tehran həmin regionlardakı investisiya layihələrində aktivliyini artırır ki, perspektivdə daha çox fayda götürsün"

**"Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovun İrana səfəri, həmkarı Hüseyn Əmir-Abdullahianla və Prezident Seyid İbrahim Rəisi ilə görüşü iki ölkə arasında hərbi-siyasi, dini-ideoloji mövqelərdəki haçalanmaların yenidən vüsət aldığı dövrə təsadüf edir". Bu barədə "Şərq"ə siyasi şərhçi Aqşin Kərimov deyib. Ekspertin sözlərinə görə, İran-Azərbaycan münasibətlərində mütəmadi meydana çıxan arzuolunmaz halların nə zamansa gündəmdən çıxacağını söyləmək çətindir:**

"Xarici işlər naziri Ceyhun Bayramovun səfəri daha çox iqtisadi prioritetlərlə əlaqədar idi. Lakin güman etmək çətin deyil ki, onun Abdullahian və Rəisi ilə görüşündə qarşı tərəf İran ali dini liderinin Azərbaycana nümayəndə təyin etmək məsələsini gündəmə gətirib. Azərbaycan üçün bu, elə də önəm kəsb etmir. Çünki ali rəhbərin Azərbaycandakı keçmiş nümayəndəsi Ocaqnejadın fəaliyyəti tarixin və Azərbaycan xalqının yaddaşından silinməyib. Ancaq siyasi gündəlikdəki fikir ayrılıqlarına baxmayaraq, Azərbaycanla İranın iqtisadi-ticari, nəqliyyat, energetika sahələrində, beynəlxalq yükdaşımalar platformasındakı maraqları pozitiv məqamlar üzərində inkişaf edir. Məhz buna keyfiyyətcə yeni məzmun yükləmək üçün danışıqlar aparılır. Azərbaycanla İran hazırda Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsini, istismarını, energetika və su ehtiyatlarından istifadəni postmünaqişə dövrünün prioritetlərindən hesab edir. Detalların dəqiqləşdirilməsi üçün iki ölkə arasında intensiv dialoqa ehtiyac duyulur. Elə buna görə də, Ceyhun Bayramovun səfərinin ardınca, iyulun 5-də İranın Energetika naziri Əli Əkbər Mehrabian Azərbaycana gəlib".

**A.Kərimov vurğulayıb ki, Azərbaycanla İran postmüharibə dövrünün yaradacağı iqtisadi reallıqları beynəlxalq nəqliyyat dəhlizlərinə inteqrasiya etməyi hədəfləyirlər:** "Bu mənada "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi xüsusi əhəmiyyət daşıyır. Ceyhun Bayramov qeyd edib ki, Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizinin ötürücülük qabiliyyətini artırmağa və Rəşt-Astara dəmir yolunun tikintisinə görə məsuliyyəti öz üzərinə götürməyə hazırdır. Həmin dəhlizin yaradılmasında (2000-ci ildə) məqsəd Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya gedən yüklərin çatdırılma müddətini azaltmaqdır. Bu beynəlxalq dəhliz Azərbaycan və İran dəmir yolları şəbəkəsi ilə birləşdirilməsi layihələrini də stimullaşdırır. Bunun üçün 2019-cu ildə Qəzvin-Rəşt (175 km) sahəsinin rəsmi açılış mərasimi keçirilib. Lakin İran Rəşt-Astara (167 km) sahəsində dəmir yolu tikməlidir. Dəhliz çərçivəsində bütün infrastruktur layihələri tamamlandıqdan sonra İran ərazisindən keçməklə Bakıdan Naxçıvan Muxtar Respublikasına dəmir yolu ilə birbaşa daşımaların təşkili mümkün olacaq. C.Bayramovun dediyindən belə anlaşılır ki, Azərbaycan İran ərazisində yarımçıq qalan tikintini reallaşdırmaq üçün vəsait xərcləməyə hazırdır. İran da bu jestə hansısa müsbət cavab verməlidir. Hüseyn Əmir-Abdullahianın bəyanatından aydın olur ki, bu marşrutun inşasında İran tərəfi daha çox xərc çəkməyi öhdəsinə götürüb".

Analitik vurğulayıb ki, gələcəkdə Azərbaycanla İranın Qarabağdakı və Şərqi Zəngəzurdakı birgə ticari maraqları həmin beynəlxalq dəhlizin elementinə çevriləcək: "Qarabağ və Şərqi Zəngəzur bölgələri sanksiyalar altında olan İran üçün iqtisadi fürsətlər pəncərəsidir. Ona görə də Tehran həmin regionlardakı investisiya layihələrində aktivliyini artırır ki, perspektivdə daha çox fayda götürsün. Azərbaycan İranın bu fəallığından məmnundur. Ceyhun Bayramov da iranlı həmkarı ilə görüşündə məmnunluğunu dilə gətirib. Rəsmi Tehran yeni regional platformaya (Azərbaycan, Türkiyə, Rusiya, İran, Gürcüstan, Ermənistan) özünəməxsus şəkildə forma və məzmun vermək istəyir. Abdullahianın altı ölkənin iştirakı ilə İranda iclas keçirilməsini təklif etməsi bunun bariz əlamətidir. Hərçənd, Tehranın təşəbbüsləri ona ambisiyalı üstünlük qazandırmaq imkanlarından məhrumdur".

> "Azərbaycanla İranın siyasi mövzulardakı baxış bucağındakı fərqlər qalacaq. Həmin məsələlərdə düyünlərin sayının azaldılmasını təklif etmək iki ölkənin də xarici siyasətinin gündəmindədir"

Müsahibimiz vurğulayıb ki, XİN rəhbəri Ceyhun Bayramovun Tehran qrafikini Azərbaycan və İran prezidentlərinin qarşılıqlı səfər proqramlarının razılaşdırılması kimi də xarakterizə etmək olar: "Azərbaycanla İranın siyasi mövzulardakı baxış bucağındakı fərqlər qalacaq. Həmin məsələlərdə düyünlərin sayının azaldılmasını təklif etmək iki ölkənin də xarici siyasətinin gündəmindədir. Ancaq tərəflər prosesin tənzimlənmə mexanizminin ortaq nöqtələrdən çox, fərdi strateji məntiq əsasında inkişaf etdirmək niyyətində olduğundan bu müstəvidə iki ölkənin ulduzu barışmayacaq. İqtisadi-ticari mövzular bu xətdən tamamilə ayrı tutularaq yeni mərhələyə qədəm qoyacaq. Azərbaycanla Türkiyə İranın regional iqtisadi əməkdaşlıqda aktivliyinin artmasına çalışacaq və buna görə üçtərəfli formatda birgə layihələrin icrasına başlanıla bilər".

**İsmayıl Qocayev**

# Paşinyan sonda reallıqlarla barışacaq

## Laçında Azərbaycanın sərhəd və gömrük postlarının olması mütləqdir



**"Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiya və demarkasiyasına sülh müqaviləsinin bağlanmasından sonra baxılmalıdır". Bu sözləri "Şərq"ə politoloq Məhəmməd Əsədullazadə deyib. Ekspert bildirib ki, ilk növbədə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalı və Qarabağ məsələsini gündəmə gətirməməlidir:**

"Ermənistan Qarabağda etnik ermənilərin hüquqları və təhlükəsizliyini qabardacaqsa, sülh danışıqları mümkün olmayacaq. Baş nazir Nikol Paşinyan reallıqlarla barışmalıdır və barışacaq. Bundan əlavə, Laçın dəhlizinə alternativ yolun istifadəyə verilməsi və orada Azərbaycanın sərhəd və gömrük postlarının olması mütləqdir. Bu, ilk növbədə Rusiyanın əl-ayağını bağlayacaq. Çünki Qarabağda silahlı ermənilərin lojistikasını Rusiya həyata keçirir. Azərbaycan tərəfi Rusiyanın bu addımlarını neytrallaşdırmalıdır. Əsas proseslər qarşıdadır. Brüssel və Moskva arasında Cənubi Qafqazda rəqabət uğrunda mübarizə gedir. Moskva deastiblizasiyada, Brüssel isə sabitlikdə maraqlıdır. Məhz Avropa İttifaqının prezidenti Şarl Mişelin Azərbaycan Prezidenti İlham Əliyevə zəngi əldə olunmuş razılaşmaların praktiki həllini özündə ehtiva edir. Büresselin vasitəçiliyi onda baş tutacaq ki, Ankara prosesdə yer alaraq Moskvanı neytrallaşdırsın".

**İsmayıl**

# Meymunçiçəyinin Azərbaycanda yayılması qaçılmazdır

## Ölkəyə testlərin gətirilməsi də müəyyən hazırlıq məqsədi güdür



**Əsasən Afrika ölkələrində endemik olan meymunçiçəyi xəstəliyi hallarına digər ölkələrdə də rast gəlinməsi bu xəstəliyin yayılma təhlükəsini gündəmə gətirib.**

Meymunçiçəyi artıq Azərbaycan sərhədlərinə yaxınlaşıb, Qardaş Türkiyə və qonşu Gürcüstanda da yoluxma halları qeydə alınıb. Əlbəttə, bu hal ölkə Azərbaycan ictimaiyyəti və hökumətində müəyyən narahatlıqlar doğurur. Bununla bağlı Səhiyyə Nazirliyi məlumat yayıb.

Xəbərdə vurğulanır ki, Azərbaycana meymunçiçəyi test dəstləri gətirilib. Qeyd olunub ki, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi sözügedən xəstəliyin diaqnostik testlərinin alınıb ölkəyə gətirilməsi üçün ÜST-yə müraciət edib. Müraciətin nəticəsi olaraq, ÜST tərəfindən üç min diaqnostik test artıq Azərbaycana gətirilərək Səhiyyə Nazirliyinin Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzinə təhvil verilib.

Beləliklə, Azərbaycanda digər ölkələrdən gətirilmə meymunçiçəyinə şübhəli hallar qeyd edilərsə, xəstəlik hadisələrinin PZR üsulu ilə laborator diaqnostikası üçün artıq bütün imkanlar mövcuddur.

**Test dəstlərinin ölkəyə gətirilməsi virusun ölkəmizə gəlmə təhlükəsinin bir addımlıqda olduğunu sübut edir. Bununla bağlı "Şərq"ə açıqlama verən tanınmış həkim-cərrah, tibb üzrə elmlər doktoru Adil Qeybulla bildirib ki, indiki halda meymunçiçəyi virusunun ölkəyə gəlməsi realdır:** "Hər halda turistlər səyahət edirsə və qonşu ölkələrdə də bu xəstəlik varsa, Azərbaycanda da bu virusun aşkarlanması mümkündür. Testlərin gətirilməsi də müəyyən hazırlıq məqsədi güdür. Əgər ölkədə həmin virus peyda olarsa, lazımi diaqnostika tədbirlərinin həyata keçirilməsi və prosesin qarşısının alınması üçün testlər ölkəyə gətirilib.

Düşünmürəm ki, meymunçiçəyi virusu pandemiya yarada bilər. Hər halda sözügedən virus Azərbaycanda aşkarlanarsa, proseslərin qarşısının alınması və mümkün qədər az insan yoluxması üçün mütləq lazımi və önləyici tədbirlər görülməlidir. Əhalinin maarifləndirilməsi istiqamətində də paralel işlər görülməlidir".

**Çimnaz Şahlar**

**Məlahət Rzayeva**

# Məmurların sayında ixtisarlar aparılmalıdır

## Azərbaycanda qənaət rejiminin konturları görünür, amma daha da genişləndirilməlidir

**Hökumət qənaət rejiminə keçməyə çalışır. Son günlərdə qəbul edilən bəzi qərarlara baxsaq, qənaət rejiminin konturlarını görmək mümkündür. Məsələn, Nazirlər Kabineti "Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" qərarında dəyişiklik edib.**

Bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb. Dəyişikliyə əsasən, Təhsil Nazirliyinə ayrılan xidməti minik avtomobillərinin say həddi 75-dən 23-ə endirilib. Təhsil Nazirliyinin ərazi və yerli bölmələr üzrə ayrılan xidməti minik avtomoillərinin sayı 65-dən 13-ə endirilib. Həmçinin, Milli Məclisin deputatlarına verilən bəzi pul təminatları da ləğv edilib. Məlumatlara görə, iyulun 1-dən etibarən deputata hər ay vəzifə maaşı, vəzifə maaşına əlavə və deputatlıq səlahiyyətlərinin yerinə yetirilməsi ilə əlaqədar xərclərin ödənilməsi üçün verilən vergilərdən azad olunan pul təminatı ləğv olunub. Habelə, Milli Məclisin sədri, onun birinci müavini və müavinləri, Milli Məclisin komissiya sədrləri və onların müavinləri, Milli Məclisin deputatlarına verilən deputatlıq səlahiyyətlərinin yerinə yetirilməsi ilə əlaqədar xərclərin ödənilməsi üçün vəzifə maaşlarının 50 faizi məbləğində vergilərdən azad olunan aylıq pul təminatı ləğv edilib. Bundan əlavə, məzuniyyətdə olduğu zaman deputata müalicə olunması və istirahət etməsi üçün verilən onun iki aylıq vəzifə maaşı məbləğində müavinət də ləğv olunub. Qeyd edək ki, deputatların maaşlarının artırılması ilə bağlı "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" qanuna dəyişiklik layihəsi parlamentin iyunun 29-da keçirilən plenar iclasında III oxunuşda qəbul edilib. Qanuna edilmiş dəyişikliklə Milli Məclisin sədri 3 550 manat miqdarında aylıq vəzifə maaşı alacaq. Milli Məclis sədrinin birinci müavini Milli Məclis sədrinin aylıq vəzifə maaşının 90 faizi, Milli Məclis sədrinin müavini - 85 faizi, Milli Məclisin komitə və komissiya sədri - 80 faizi, Milli Məclisin komissiya sədrinin müavini - 75 faizi, Milli Məclisin deputatı isə Milli Məclis sədrinin aylıq vəzifə maaşının 70 faizi miqdarında aylıq vəzifə maaşı alacaq. Milli Məclisin sədri, onun birinci müavini və müavinləri, Milli Məclisin komitə və komissiya sədrləri və onların müavinləri, Milli Məclisin deputatları hər ay vəzifə maaşlarının iki misli məbləğində vəzifə maaşına əlavə alacaqlar.





> "Bu qədər səfirliklərə, konsulluqlara, nümayəndəliklərə ehtiyac yoxdur, dövləti xarici ölkələrdə yaşayan, işləyən, təhsil alan vətəndaş da çox gözəl təmsil edə bilər"

Dünyada gedən proseslərə, məhz törədilən kataklizmləri (çoğrafi deyil, sosial, iqtisadi termin kimi yanaşsaq) nəzərə alsaq, qənaət rejiminə keçid labüddür. Yola salmaqda olduğumuz pandemiya da sübut etdi ki, qarşıdakı illərdə vəziyyət daha da pisləşə bilər. İqtisadi böhranlar, quraqlıq, aclıq, qıtlıq, su müharibələri, bəzi dövlətlərin dünyanın şəklini dəyişmək cəhdi... bütün bunlar gələcəkdə həyat şərtlərinin daha da ağırlaşacağının xəbərçisidir. Bu vəziyyətdə hökumətlər fors-major hallar üçün planlar, proqramlar tərtib edib, ehtiyat tədbirləri görür. Dövlət büdcəsinin qənaət rejiminə keçməsi də bu tədbirlərdən biri hesab edilməlidir. Necə ki, bir ailə qiymət artımı qarşılığında məsrəflərini minimuma endirməyə çalışır, eləcə də böyük ailə - dövlət ehtiyatların, gəlirlərin rasional xərclənməsi istiqamətində əməli iş görməlidir. Büdcə mənasız, əlavə xərclərdən azad edilməlidir. Harda ki, "bunsuz" da keçinmək olar", prinsipi işləyir, orda "bunsuz" keçinilməlidir. Məşhur "Ad günü" filmində Əlinin həyat yoldaşı övladına ad günü məclisinin keçirilməsinə etiraz edir, deyir ki,"bu dəm-dəstgah nəyə lazımdır. Ondansa uşağa palto alaq". Söhbətə qulaq kəsilən qayınata isə qaşlarını çatıb: "dövlətdə "kiçik" və "böyük" siyasət anlayışı var. Elə bilirsən, bu bayramlar, təntənəli mərasimlər dövlətə lazımdır, filan qədər pul xərclənir bu cür tədbirlərə. Amma bu, dövlətin "kiçik siyasətidir". Xalqa bayram da yaşatmaq lazımdır, parad da...". Buradan çıxış edərək indi də müəyyən xərcləri, əgər onlar "kiçik siyasətə" aid deyilsə, azaltmaq olar. O qədər mənasız, "olmasa da olar" işlərə pullar xərclənir ki!

Təhsil Nazirliyinin xidməti avtomobillərinin sayının azaldılmasını, eləcə də millət vəkillərinin bəzi müavinətlərinin, əmək haqqına əlavələrin ləğvini qənaət rejiminə keçidlə əlaqələndirmək olarmı?

**İqtisadçı Əkrəm Həsənov "Şərq"ə açıqlamasında, əvvəla, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" qanuna edilmiş dəyişiklik layihəsinin ictimaiyyətə təqdim olunmadığını bildirdi:** - Şəxsən mən bu layihənin mətninin hardasa açıqlandığını, çap olunduğunu görməmişəm. Deyirlər, dəyişiklik edilib. Bəs harda yazılıb, harda açıqlanıb bu yeni layihə? Milli Məclis sanki bu layihəni gizli saxlayır. Qanun layihəsi ortada yoxdur. Milli Məclis "havadan", "göydən" layihə qəbul edəndə onu dərhal təqdim edirlər, geniş şəkildə açıqlayırlar. Amma vəzifə maaşları və əlavələr haqqında qanun layihəsini gizlədirlər. Biz bilmirik, nə ləğv olunub, nə əlavə edilib. Bircə bunu bilirik ki, deputatların əmək haqqı 4 min manatdan 8 min manata çatıb. Hansısa əlavələr ləğv edilibsə, əvəzində onsuz da yenə yüksək əmək haqqı alacaqlar. Amma bütün hallarda bəzi əlavələrin, müavinətlərin ləğvi təqdirəlayiqdir. Onsuz da ölkədə icbari tibbi sığorta tətbiq edilir. Belə olan halda deputatlara müalicə xərclərinə görə niyə əlavə pul ödənməlidir? Və yaxud, deputat xarici səfərlərə dövlət hesabına gedir. Əmək haqqı da yüksəkdir, ona niyə əlavə məzuniyyət, istirahət pulu verilməlidir? Bunlar məntiqsiz şeylərdir. Təhsil Nazirliyinə məxsus xidməti avtomobillərin sayının azaldılması da müsbətdir. Xərcləri minimuma endirmək lazımdır.

**İqtisadçı qənaət rejiminə keçidlə bağlı fikirlərini də "Şərq"lə bölüşdü:**

- Aydın məsələdir ki, ixtisarlar, azalmalarda məqsəd qənaətdir. Avropa ölkələrində nazirlər işə piyada, ya ictimai nəqliyyatla, ya da velosipedlə gedir. Bizdə də nəinki nazirlər, nazir müavinləri, komitə sədri və müavinləri, hətta idarə rəisləri, şöbə müdirləri də xidməti avtomobildən istifadə edir, hələ üstəlik, ailə məsələləri, şəxsi işləri, övladlarını məktəbə aparıb-gətirmək üçün də xidməti avtomobillərdən istifadə edirlər. Mən həmişə demişəm ki, məmurun maaşı yüksək olmalıdır ki, rüşvət almasın. Amma məmurun gəlirləri də şəffaf olmalıdır, gəlirlər açıqlanmalıdır. Dövlət vəsaitindən necə istifadə olunduğu, nə qədər vergi ödəndiyi bilinməlidir. Sizə deyim ki, hazırda ən böyük bədxərclik xarici səfərlərdədir. Pandemiya göstərdi ki, onlayn işləmək də mümkündür. Yəni xarici ölkələrdə təşkil edilən tədbirlərdə onlayn formatda da iştirak etmək olar. Məcbur deyillər ki, hansısa ölkəyə səfər etsinlər. Onsuz da hamı bilir ki, xarici ölkəyə səfərlər daha çox gəzinti məqsədi daşıyır. Hamısı xaricə gəzməyə gedir. Orda danışdıqlarını, səsləndirdikləri təklifləri, imzaladıqları sənədləri onlayn qaydada da edə bilərlər. Amma yox, pandemiya bir qədər yumşalan kimi hamısının xaricə "ayağı açılıb". Bu, dövlət büdcəsindən 100 milyonlarla vəsaitin xərclənməsi deməkdir, həm də lazımsız yerə. Bizim ölkədə məmurların sayı həddindən artıq çoxdur. Əgər məmur sayında ixtisar aparılmırsa, qənaət rejimindən geniş mənada danışmaq əbəsdir. Görün, nə qədər xarici dövlətdə Azərbaycanın səfirliyi, diplomatik korpusu, konsulluğu, nümayəndəliyi və bunların hamısının nə qədər əməkdaşı var. 50 il əvvəl bu lazımlı sayılırdı. Səfirlər, konsullar dövləti təmsil edirdi. Müasir zamanda onlara geniş ehtiyac yoxdur. Dövləti xarici ölkələrdə yaşayan, işləyən, təhsil alan vətəndaş da çox gözəl təmsil edə bilər. Əgər onlarla normal qaydada iş aparılsa. Qısası, hökumət istəsə, qənaət rejiminə keçə bilər. Büdcəyə də az zərər verilər.




# Tarixi qələbəmiz gücümüzə güc qatdı

## Azərbaycan diasporunun səsi indi dünyanın hər yerində eşidilir

İsmayıl Qocayev

**Diasporla İş üzrə Dövlət Komitəsi 20 illik fəaliyyəti dövründə güclənən Azərbaycan dövlətçiliyinin əsas sütunlarından birinə çevrilərək, ölkəmizdən kənarda yaşayan həmvətənlərimizin birliyi, həmrəyli uğrunda böyük işlərə imza atıb.**

Azərbaycanın dövlət siyasətini uğurla həyata keçirən Komitə diasporun formalaşmasından tutmuş təşkilatlanmasınadək çətin yol qət edib. Ölkədən kənarda səsimizə səs verən həmvətənlərin birliyinə nail olub. Bu gün Azərbaycan diasporunun səsi dünyanın demək olar ki, bütün ölkələrindən eşidilir. Bu da diaspor işinin düzgün şəkildə yerinə yetirilməsindən, azərbaycanlıların birlik və həmrəyliyindən irəli gəlir. Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlətin qarşısında duran əsas vəzifələrdən biri xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, onların ölkəmizin ümumi maraqlarının müdafiəsi işinə cəlb edilməsi olub. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə gəlişi digər sahələrdə olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş yaradıb. Ümummilli lider bütün xarici səfərlərində Azərbaycan diasporunun nümayəndələri ilə görüşür. Onların problem və qayğıları ilə maraqlanırdı. Həmvətənlərimizi yenicə müstəqillik qazanmış respublikamızın tarixi mənafelərinin reallaşdırılması prosesində fəal iştirak etməyə çağırırdı. Zaman keçdikcə diaspor quruculuğu Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu siyasətin məqsədi dünya azərbaycanlılarının tarixi Vətənlə əlaqələrini inkişaf etdirmək, soydaşlarımızın milli özünəməxsusluğunu qoruyub saxlamaq idi. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi üçün 2001-ci ilin may ayının 23-də ümummilli lider Heydər Əliyev Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında Sərəncam imzalayıb. 2002-ci ilin 5 iyulunda Ulu Öndər Heydər Əliyev "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Fərman imzalayıb. Fərman Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil qaydada əlaqələndirilməsi, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təminatı baxımından müstəsna əhəmiyyyət kəsb edən mühüm tarixi sənəd idi.

Ötən dövrün ən mühüm hadisələrindən biri də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması olub. Qloballaşan dünyamızın reallıqları diaspor quruculuğu sahəsində Azərbaycanın qarşısında yeni vəzifələr qoymuşdu. Xalqlar arasında gedən sürətli inteqrasiya prosesləri, diaspor və lobbi təşkilatlarının beynəlxalq siyasətdə artan rolu bu sahədə daha genişmiqyaslı fəaliyyət göstərilməsini tarixi zərurətə çevirmişdi. Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması məhz bu zərurətdən irəli gəlirdi. Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması digər xalqların diaspor qurumları və müxtəlif ölkələrin bilavasitə bu sahəyə məsul olan dövlət orqanları ilə birbaşa əməkdaşlığın qurulması imkanlarını genişləndirir. Bu mənada Prezidentin "Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Sərəncamı Azərbaycan Respublikasının diaspor quruculuğu işinə verdiyi önəmin daha bir parlaq təzahürü kimi qiymətləndirilməlidir. Prezident İlham Əliyevin 5 iyul 2018-ci il tarixli fərmanı ilə Azərbaycan Diasporuna Dəstək Fondu yaradılıb. Fond bu illər ərzində 200-ə yaxın diaspor təşkilatının sənədlərinin həmin ölkələrin qanunvericiliyinə uyğun tərtib edilməsi və qeydiyyatdan keçməsinə dəstək göstərib, 100-dən çox layihəni maliyyələşdirib. Eyni zamanda Şuşa Bəyannaməsinə uyğun olaraq Azərbaycan və türk diasporları arasında qarşılıqlı əməkdaşlıq, dəstək və həmrəylik fəaliyyətinin gücləndirilməsinə xüsusi diqqət yetirilir. Həmçinin, Azərbaycan diasporunun birliyinə nail olunması və sistemli işin təşkil edilməsi məqsədi ilə 2019-2023-cü illər üçün Strateji Yol Xəritəsi hazırlanıb. Məhz vahid ideya və maraqlar uğrunda dövlət-diaspor əməkdaşlığının inkişafı, qüvvələrin ümumi məqsəd naminə birləşməsi, xüsusən, böhranlı vəziyyətlərdə düşünülmüş çevik planın olması üçün çalışılıb. Bu istər koronavirus pandemiyası, istərsə də Vətən müharibəsi dönəmində sistemli həyata keçirilib. Diaspor gənclərinin fəallığının artırılması, milli kimliyin qorunub-saxlanılması və liderlik potensialının inkişaf etdirilməsi məqsədi ilə Azərbaycan Diaspor Gəncləri şəbəkəsi formalaşdırılıb. 2020-ci ildə Nazirlər Kabineti tərəfindən "Xaricdə yaşayan aztəminatlı azərbaycanlılara sosial yardımın göstərilməsi qaydası" təsdiq olunub. Komitə ilə rahat əlaqə yaradıla bilməsi məqsədilə müasir informasiya texnologiyaları tətbiq edilib və qurum "Elektron hökumət" portalına inteqrasiya olunub. Azərbaycanlıların Koordinasiya Şuralarının yaradılması və Azərbaycan Evlərinin açılması - hazırda dünyanın 31 ölkəsini əhatə edən və 130 diaspor təşkilatını özündə birləşdirən 14 Koordinasiya Şurası, 12 ölkədə fəaliyyət göstərən 18 Azərbaycan Evi fəaliyyət göstərir. COVID-19 pandemiyası ilə əlaqədar sərhədlərin bağlanması, eləcə də Ukraynada baş verən hadisələrlə əlaqədar təxliyə olunan soydaşlarımız Azərbaycan evlərinə üz tutublar. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə xarici ölkələrdə "Qarabağ" adlı həftəsonu Azərbaycan məktəbləri fəaliyyətlərini genişləndirir. Hazırda Ottava, Nant, Bern, Varşava, Stokholm, London kimi şəhərlərdə fəaliyyət göstərən "Qarabağ məktəbi"ndə yüzlərlə azərbaycanlı uşaq təhsil alır. 6-10 yaşlı azərbaycanlı uşaqlar üçün müasir üslubda hazırlanmış "Azərbaycan dili" dərsliyi çap edilərək xaricdəki soydaşlarımıza göndərilib. Azərbaycan həqiqətlərinin Avropa ictimaiyyətinə çatdırılması üçün mitinq və aksiyaların təşkili: "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində, 2020-ci ilin "Tovuz hadisələri" Vətən müharibəsi zamanı Avropanın 30 ölkəsində on minlərlə soydaşımızın iştirak etdiyi 300-dən artıq aksiya keçirilib.

**Millət vəkili Cavid Osmanov "Şərq"ə açıqlamasında deyib ki, 1991-ci ilin 16 dekabrında ümummilli liderimiz Naxçıvan Muxtar Respublikasının Ali Sovetinə rəhbərlik etdiyi dövrdə dünya azərbaycanlılarının birliyinə, onların bir mövqedən çıxış etmələrinə, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına, həmrəylik nümayiş etdirilməsinə nail olmaq üçün təşəbbüs irəli sürmüşdü.** Deputat bildirib ki, daha sonra ümummilli liderimiz tərəfindən dünya azərbaycanlılarının fəaliyyətinin təşkil edilməsi, onların koordinasiyalı fəaliyyəti üçün ayrıca dövlət qurumunun yaradılması ilə bağlı Sərəncam imzalanmışdı: "Ümummilli liderimiz azərbaycançılıq ideologiyasının tərkib hissəsi olaraq dünya azərbaycanlılarının koordinasiyalı şəkildə fəaliyyəti, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, Ermənistanın işğalçılıq siyasətinin ifşa edilməsi, o cümlədən güclü və qüdrətli Azərbaycan qurmaq üçün ciddi addımlar atıb. Dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi də ümummilli liderimizin təşəbbüsü ilə başlayıb. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrə, 2003-cü ildən bu yana nəzər salsaq, görərik ki, dünya azərbaycanlılarının təşkilatlanması istiqamətində çox mühüm addımlar atılıb. Xüsusən, son illər ərzində Diaspora Komitəsi tərəfindən dünya azərbaycanlılarının koordinasiyalı şəkildə və bir amal uğrunda mübarizə aparmaqları istiqamətində ölkə Prezidenti tərəfindən qarşıya qoyulan vəzifələr yüksək səviyyədə həyata keçirilib. 2020-ci ilin iyul ayında Ermənistan tərəfindən bütün cəbhə boyu təxribatlar törədildikdə dünya azərbaycanlıları erməni yalanlarının, təxribatlarının qarşısını almaq istiqamətində önəmli təşəbbüslər göstəriblər. Eyni zamanda 44 günlük Vətən müharibəsində Diaspora Komitəsinin düzgün qurduğu koordinasiyalı fəaliyyətin nəticəsi olaraq dünya azərbaycanlıları "Dəmir Yumruğ"un tərkib hissəsi olublar. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində vacib işlər görüblər. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar həmrəylik nümayiş etdiriblər. Hamı bir nəfər kimi cənab Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşmişdi. Bütün dünya gördü ki, dünya azərbaycanlıları birləşərək ölkəmizin qarşısında duran ən böyük problemi həll etməyi, işğalda olan torpaqlarımızı azad etməyi bacardı".

**Parlament üzvü qeyd edib ki, 2022-ci ilin aprel ayında keçirilən Dünya Azərbaycanlılarının V Zəfər Qurultayında çıxış edən ölkə Prezidenti həm Komitə, həm dünya azərbaycanlıları qarşısında yeni hədəflər müəyyənləşdirdi:** "Şuşada keçirilən Zəfər Qurultayı çox böyük tarixi əhəmiyyətə malik idi. Çünki orada bütün dünya azərbaycanlılarının qarşısında gələcək hədəflər müəyyənləşdirildi. İnformasiya sahəsində Azərbaycan həqiqətlərinin, haqq səsimizin dünyaya çatdırılması, xaricdə yaşayan soydaşlarımızın, ələlxüsus gənc nəslin ana dilimizi, tariximizi yaxşı mənimsəməsi üçün addımların atılması xüsusi olaraq vurğulandı. Həmçinin, qeyd etmək lazımdır ki, ölkəmizin Birinci Vitse-prezidenti, hörmətli Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bir neçə xarici ölkədə Qarabağ məktəbləri fəaliyyət göstərir. Bu da xaricdəki soydaşlarımız və yetişməkdə olan gənc nəsil üçün müstəsna əhəmiyyət kəsb edir. Məhz Diaspora Komitəsi tərəfindən həyata keçirilən işlərin məntiqi nəticəsidir ki, dünya azərbaycanlıları mükəmməl şəkildə təşkilatlanıblar. Soydaşlarımız dünyanın hər yerində Azərbaycanın haqq səsini ucaldırlar. Şübhəsiz ki, bütün bunlar cənab Prezident İlham Əliyevin apardığı uzaqgörən siyasətin nəticəsidir".

# Neftin qiymətinin 380 dollar olması mümkün deyil

## Sanki belə proqnozları tirajlamaqla alternativ "yaşıl enerji"yə daha çox vəsaitin ayrılmasına nail olmağa çalışırlar




**ABŞ və Avropanın tətbiq etdiyi sanksiyalar Rusiyanı cavab tədbirləri ilə neft hasilatını azaltmağa məcbur edərsə, dünya neft qiymətləri 380 dollara çata bilər. Bu barədə ABŞ-ın maliyyə holdinqi olan "JPMorgan Chase & Co." analitiklərinə istinadən məlumat yayılıb.**

Məlumata görə, G7 liderləri Ukraynada xüsusi əməliyyatı dayandırmaq üçün Rusiya Prezidenti Vladimir Putinə təzyiq göstərmək üçün Rusiya neftinin qiymətlərini məhdudlaşdırmaqla bağlı kompleks mexanizmi müzakirə edirlər. Bununla belə, Rusiyanın büdcə sisteminin sabitliyini nəzərə alsaq, Moskva gündəlik neft hasilatını iqtisadiyyata ciddi zərər vurmadan 5 milyon barel azaltmağa qadirdir. Hesab edilir ki, dünyanın qalan hissəsi üçün Rusiyada hasilatın mümkün azalması fəlakətli nəticələrə səbəb ola bilər. Analitiklərin fikrincə, tədarükün sutkada 3 milyon barel azaldılması Londonda qiymətləri 190 dollara, ən pis halda isə 380 dollarıdək çəkə bilər.

**Neftlə bağlı proqnozları "Şərq"ə dəyərləndirən iqtisadçı Natiq Cəfərli deyib ki, "JPMorgan Chase & Co."-nun açıqlaması dünya iqtisadiyyatı üçün fəlakət senarisidir. Ekspertin sözlərinə görə, sanki belə proqnozları tirajlamaqla alternativ "yaşıl enerji"yə daha çox vəsaitin ayrılmasına nail olmağa çalışırlar:** "Bunun başqa izahı yoxdur. 380 dollara neft ola bilməz. Heç 200-ə qalxması belə qeyri-mümkündür. Bu, dünya iqtisadiyyatını çökdürər. Onsuz da dünya iqtisadiyyatı durğundur. Amma neftin qiymətinin müəyyən faizdə artım tempi mümkündür. Rusiyaya qarşı sanksiyaların genişlənməsi neftin bir barelinin qiymətini 150 dollara kimi qaldıra bilər. Bu ehtimal var. Neft qiymətləri bu hədləri test edib. 2008-ci ilin iyul ayında neftin qiyməti 148-149 dollar idi. Məhz o zaman bu artıma görə dünya iqtisadiyyatında ciddi böhran yaşanmışdı. 380 dollar fantastik rəqəmdir. Çox qısa müddətdə belə sıçrayış olsa belə qalıcı olması imkansızdır".

İsmayıl Qocayev

# Quru sərhədlərin açılmamasına dörd əsas səbəb göstərilir

## Bütün hallarda yol açılmalı, müvafiq dövlət orqanları səfərbər olunmalı və cavabdehlik daşımalıdır



Nihat Müzəffər

**Qonşu ölkələrin sərhədləri açdığı bir zamanda Azərbaycanın gözlənilmədən Naxçıvan üzərindən İrana və Türkiyəyə quru sərhədlərini bağlaması vətəndaşlar arasında narazılığa səbəb olub.**

Son quru yolunun bağlanmasıyla artıq Azərbaycan qonşu dövlətlərə əlaqəni tamam kəsib. Sosial şəbəkələrdə bunun səbəbinə dair müxtəlif yanaşmalar var. Kimi bunu Azərbaycanın Qarabağda keçirəcəyi antiterror əməliyyatları ilə izah edir, kimi isə Ukrayna-Rusiya müharibəsi üzündən ölkəmizə gələ biləcək miqrantlarla əlaqələndirir.

**Azərbaycandakı sonuncu nəfəsliyin Aşqabad sammitinin ardından bağlanmasının çox maraqlı olduğunu deyən politoloq Ərəstun Oruclu "Şərq"ə bildirib ki, quru yolunun bağlanması 4 səbəblə izah oluna bilər:** "Birinci, ölkədə gedən müzakirələrdə əsas səbəb kimi sərnişin daşımalarından əldə olunan böyük gəlirlərin AZAL-ın nəzarətində saxlanılması göstərilir. İkinci bir səbəb kimi iqtisadi vəziyyətin çətinləşməsi üzündən ölkəyə Rusiyada yaşayan azərbaycanlıların bir hissəsinin kütləvi dönüşünün qarşısını almaq cəhdi deyilir. Üçüncü, bu da istisna deyil ki, Türkiyə ilə sərhədlərin bağlanmasını Aşqabadda keçirilən görüş zamanı Rusiya Prezidenti Putin tələb edib. Dördüncü, rəsmi qurumlar tərəfindən səbəb olaraq göstərilən COVİD-19 pandemiyasıdır. Bəri başdan deyim ki, 4-cü bənddə göstərilən rəsmi izah son dərəcə absurd olduğundan heç bir müzakirə predmeti ola bilməz.

Bütün bunlara baxmayaraq, ölkə vətəndaşlarının öz ölkəsinə rahat gəlib-gedə bilməsinin qarşısının alınması heç bir səbəblə əsaslandırıla bilməz.

Ölkənin quru sərhədləri açılmalıdır, milli təhlükəsizlik üçün təhdidlərin profilaktikası və aradan qaldırılması üçün isə müvafiq dövlət orqanları səfərbər olunmalı və cavabdehlik daşımalıdır".

# Zəngəzur yolundan İran da qazanacaq, Rusiya da...

## Yeni layihədən Ermənistan kənarda qalsa ölkə tam blokadaya düşəcək

Aygün Tahir

**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov iranlı həmkarı Hüseyn Əmir-Abdullahian ilə birgə mətbuat konfransında deyib ki, Şərqi Zəngəzuru və Naxçıvanı birləşdirəcək ilk körpünün tikintisinə yaxın zamanda start veriləcək.**

Nazirin sözlərinə görə, ilk körpünün texniki göstəriciləri artıq razılaşdırılıb və tezliklə tikinti işlərinə başlanılacaq. Qeyd edək ki, Azərbaycan və İran arasında imzalanan ilk vacib sənəd Şərqi Zəngəzur-Naxçıvan ticarət dəhlizi ilə bağlı imzalanan memorandumdur.

Bu sənədlə İİR ərazisində Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonunu və Naxçıvan Muxtar Respublikasını birləşdirən yeni nəqliyyat arteriyası yaradılması nəzərdə tutulur. Dəhliz İran-Ermənistan sərhədindən 5 km cənubdan keçərək Şərqi Zəngəzur ilə Naxçıvanı birləşdirən dəmiryol sahəsindən, çoxzolaqlı avtomobil şosesindən, elektrik enerji ötürmə xətlərindən, rəqəmsal rabitə və başqa elementlərdən ibarət olacaq.



**Məsələyə münasibət bildirən siyasi elmlər doktoru, politoloq Cümşüd Nuriyevin qənaətincə, Ceyhun Bayramov açıqlaması ilə dövlət başçısı İlham Əliyevin iradəsini bəyan edib:** "Zəngəzur dəhlizinin açılması ilə bağlı Ermənistan tərəfi öz imzaladığı 10 noyabr 2020-ci il bəyannaməsinin 9-cu bəndinə əməl etmək istəmir. Ona görə Azərbaycan Prezidenti alternativ axtardı, İranla memorandum imzalandı. Məhz həmin nəqliyyat dəhlizinin İrandan keçməsinə dair razılaşma var. Azərbaycan İranla münasibətlərində yeni mərhələyə qədəm qoyur. İranda müəyyən qüvvələr hələ də Azərbaycanı hədələməklə məşğuldur. Hətta "SEPAH" (İran İnqilab keşikçiləri Ordusu) C.Bayramovun səfəri zamanı bir qədər irəli getdi. Guya, İsrailin tərəfdarlarını süpürüb atırlar. Sonra Fatehin adını çəkirlər.

İran daxilində "SEPAH" bir hökumətdir, dövləti saymır. Çünki İran rəsmiləri Azərbaycana dair sərsəm bəyanat verməyib. Lakin ilk körpünün tikintisindən sonra İranın daxilində cilovlanmaq istəməyən və Azərbaycanı sevməyən qüvvələr "siyasi buxova" keçməyə məcburiyyət duyacaqlar".

**Politoloq bildirib ki, Azərbaycan alternativ kommunikasiya dəhlizi qazanacaq:** "Ermənistanla dəhlizin nə vaxt açılacağı bəlli deyil, istifadəyə verilsə belə, yüklər çox olanda İrandan keçərək daşımaq daha rahatdır. Həmin yoldan gələcəkdə başqa bir istiqamətdə birbaşa İran körfəzinə, Hind okeanına çıxış əldə edə bilərik. Şimal-Cənub dəhlizinin "Astara-Astara" dəmir yolu xətti də hazırdır.

İran Amerikanın qoyduğu sanksiyalardan əziyyət çəkir. İranın Azərbaycan vasitəsilə Rusiya və digər ölkələrə, Qafqaza çıxışı baş tutacaq. İranın sözügedən yolla Türkiyədən keçərək Aralıq dənizinə, ümumiyyətlə, okeana çıxması mümkündür. Avropaya çıxış onlar üçün önəmlidir.

Əslində itirən Ermənistandır. Rusiya isə hələlik heç nə itirmir. Rusiyanın İranla da münasibətləri yaxşıdır. Rusiya lazımi yükləri İrandan daşıya bilər. Dəhliz açılandan sonra Rusiya yüklərinin Türkiyəyə və İrana gedişi bir qədər asanlaşacaq. Yeni yol beynəlxalq standartlar səviyyəsində çəkiləcək.

Ermənistan getdikcə tam blokadaya düşür. Bu da Ermənistanın dövlət kimi mövcudluğunda sual yaradır. Onlar adıçəkilən layihədən də kənarda qalsa, Ermənistan qışda ağır vəziyyətə düşəcək".

# Orta Asiya uğrunda amansız mübarizə başlayıb

## Kreml bu regionda istəyinə nail olmaq üçün qarşıdurma senariləri hazırlayır



**Orta Asiyanı məqsədli və planlı şəkildə yenidən qarışdırmağa çalışırlar. Türk coğrafiyasında siyasi-ictimai xaosun yaradılmasına cəhd göstərilir. Böyük ehtimalla Orta Asiya üzərində nəzarət uğrunda geopolitik mübarizənin tərkib hissəsi olan bu proses yaxın gələcəkdə daha da dərinləşə bilər.**

Təbii ki, Orta Asiyada baş verən yeni toqquşmalarda kənar təsirlərin rolunu axtarmaq yersiz deyil. Çünki bu region da Cənubi Qafqaz kimi, nəhəng dövlətlərin maraqları daxilindədir. Bölgə yaxın gələcəkdə Avropa ilə Asiyanı birləşdirəcək yeni iqtisadi-ticari marşrutun üzərindədir.

Politoloq Elçin Xalidbəyli "Şərq"ə bildirib ki, Orta Asiyada yeni xaos məkanının yaradılmasına ilk cəhdlər buna qədər də edilmişdi. Həmin cəhdlərin xəbərçisi isə məhz "SSRİ 2" layihəsini reallaşdırmaq niyyəti şübhə doğurmayan Rusiyanın əsas müttəfiqi Belarusun Prezidenti Aleksandr Lukaşenko olmuşdu: "Ötən ilin sonlarında "Batka" bildirmişdi ki, Orta Asiya ölkələri yeni ittifaq dövlətinin tərkibinə daxil olacaqlar. O, bu sırada Qazaxıstan və Özbəkistanı xüsusi olaraq qeyd etmişdi. "Batka"nın həmin açıqlamasından az sonra Qazaxıstan qarışdırıldı. Qazaxıstanın şimal bölgəsində mərkəzi hakimiyyətə qarşı sosial şüarlar ilə qiyam törətməyə çalışıldı. Rusiyanın patronajlığı altında olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı dərhal Qazaxıstana hərbi kontingent göndərdi. Belə təsəvvür yarandı ki, KTMT baş verəcəklərdən əvvəlcədən məlumatlı idi və hazır vəziyyətdə gözləyirdi. Ancaq "Rus NATO-su" Qazaxıstanda uzun müddət üçün yerləşə bilmədi. Halbuki, Rusiya siyasi dairələri, eləcə də "Batka" KTMT qoşunlarının Qazaxıstanda illərlə qalacağını açıq mətnlə iddia edirdilər. Qazaxıstan Prezidenti Qasım-Comart Tokayev isə buna imkan vermədi. Rəsmi Astana qısa müddət ərzində qiyamın qarşısını aldı və KTMT qoşunlarının dərhal Qazaxıstandan çıxarılmasını tələb etdi. Bununla da Rusiya-Belarus İttifaqının "SSRİ 2" layihəsi başa çatdı. Məsələnin ən maraqlı tərəfi odur ki, son illərdə Orta Asiya ölkələri Rusiyadan uzaqlaşıb, Qərbə üz tutmağa çalışırdılar. Türk dünyasının inteqrasiya prosesinə xüsusi maraq göstərirdilər. Xüsusilə də Qazaxıstan və Özbəkistan Rusiya ilə siyasi cəhətdən məsafə saxlamağa daha həvəsli görünürdü. Və bu iki türk dövlətinin tamamilə nəzarətdən çıxması isə Rusiyanın bütövlükdə Orta Asiyanı itirməsi ilə nəticələnə bilərdi".

Analitik qeyd edib ki, hələ Qazaxıstandakı iğtişaşların ilk günlərində "Batka" Özbəkistanın gələcəyi ilə bağlı da "proqnozlar" vermişdi: "O bildirmişdi ki, oxşar hadisələr Özbəkistanda da baş verə bilər. Rəsmi Daşkənd isə "Batka"nı Özbəkistanın daxili işlərinə qarışmaqda suçlayaraq, sərt reaksiya vermişdi.

Nə qədər qəribə də olsa, Belarus prezidenti ilin əvvəlində verdiyi "proqnozu" bu dəfə məmnunluqla təkrarlayıb: "O vaxt mən, indi baş verənlər haqda xəbərdarlıq edəndə Özbəkistan rəhbərliyi narazı qalmışdı. Özbəkistanın az qala yarısı olan Qaraqalpakıstan artıq ayağa qalxıb. Özbəkistanı qarışdırırlar və orada indi qəliz situasiya yaranıb". "Batka" bu qəliz situasiyanın səbəbləri barədə də danışmağı unutmayıb. Bildirib ki, hazırda baş verənlər Orta Asiyanın dünya hegemonluğu uğrunda mübarizədə yeni poliqona çevrilmək üzrə olmasının ilkin əlamətləridir. Bir tərəfdə ABŞ və Avropa Birliyi, digər tərəfdə isə indiyə qədər Orta Asiyaya böyük yardımlar etmiş Çin dayanır. Və ona görə də Orta Asiya uğrunda amansız toqquşmaların olacağı qaçılmazdır. Əlbəttə ki, Lukaşenkonun dedikləri qərəzlidir və konkret məqsədlər güdür. Ancaq reallıqdan da tam uzaq deyil. Hələ illər öncə dünyada hansı süperdövlətin hegemonluq edə biləcəyini təhlil edərkən, yazmışdıq ki, bu, Cənubi Qafqaz, Xəzəryanı bölgə və Orta Asiyaya kimin nəzarət edəcəyindən birbaşa asılıdır. Çünki bu üç regiona nəzarət bütün Avrasiya üzərində hegemonluq vəd edir. Avrasiyaya nəzarət edən superdövlət isə bütün dünyaya hegemonluq etmək şansı qazanacaq. Bu savaşın artıq həlledici mərhələyə yaxınlaşdığı qətiyyən şübhə doğurmur. Sadəcə, bu savaşda ABŞ-la Avropa Birliyi və Çinin iştirak etdiyini vurğulayan Belarus prezidenti nə qədər qəribə də olsa, Rusiyanı qeyd etməyi unudub. Halbuki, hazırda Orta Asiya ölkələri Rusiyanın təsir dairəsinə daxildirlər. Orta Asiyanı ABŞ və Qərbin nəzarətinə buraxmaq niyyətindən çox-çox uzaq olan Kremlin bu ölkələrdə müxtəlif bəhanələrlə iğtişaşlar törətmək mexanizmləri heç kimdə şübhə yaratmır. Yəni Orta Asiya hələ də Rusiyaya bağlı müxtəlif şəbəkələrin siyasi-ideoloji və sosial-iqtisadi manipulyasiya fəaliyyətinə davamsızdır".

**E.Xalidbəyliyə görə, Rusiyanın Orta Asiya uğrunda geopolitik savaşda iştirakçı olmadığına yalnız sadəlövhlər inana bilər:** "Üstəlik, Kreml ABŞ və Qərbi Rusiya sərhədlərinə buraxmaq niyyətində də deyil. Bunun qarşısını almaq üçün istənilən radikal hərbi-siyasi addıma hazır olduğunu da qətiyyən gizlətmir. Və bu baxımdan, Orta Asiyada Özbəkistan böhranının arxasından məhz Rusiyanın çıxa biləcəyi qətiyyən istisna deyil. Digər tərəfdən, ölkədaxili iğtişaşların törədildiyi Orta Asiya dövlətlərinin birmənalı şəkildə Rusiyadan uzaqlaşmaq həvəsində olan ölkələr olması da önəm verilməyəcək məqam deyil. Qazaxıstan türk dünyasına inteqrasiya cəhdləri ilə yanaşı, ABŞ və Qərbə də yaxınlaşmağa çalışır. Özbəkistan isə KTMT-nin yaradıcılarından olsa da, bu hərbi-siyasi alyansdan çıxıb. Rəsmi Daşkənd hazırda türk dünyasına inteqrasiya prosesinə fəal şəkildə qoşulmağa çalışır. Öz siyasi-iqtisadi tərəfdaşlıq münasibətlərini Qərbə doğru istiqamətləndirmək yolları axtarır. Yəni hər iki türk dövləti Rusiya ilə məsafə saxlamağa, Kremlin təsir dairəsindən uzaqlaşmağa can atır. Digər tərəfdən, Özbəkistanda baş verən hadisələr daha çox Rusiyanın ənənəvi və imperialist xarakterli "parçala, hökm sür" senarisinə uyğundur. Türk dövlətində etnik zəmində düşmənçilik "toxumu səpməyə" çalışırlar. Bununla da iki türk mənşəli xalq arasında dərin uçurumun yaradılmasına ümid bəsləyirlər. Senarinin işə salınması ilə konkret məqsədlər güdürlər".

**Ekspertə görə, Orta Asiyada Türkiyənin liderliyi altında yeni inteqrasiya prosesi Rusiyaya qətiyyən sərf etmir:** "İnteqrasiya prosesi dərinləşəcəyi təqdirdə, Kreml bu regiona təsir mexanizmlərini itirəcəyini anlayır. Son vaxtlar maraqları daha çox toqquşmağa başlayan NATO üzvü Türkiyənin Orta Asiyaya yerləşmə ehtimalına Kremldə Rusiyanın sərhədlərində ABŞ və Qərbin peyda olma perspektivi kimi də yanaşırlar. Orta Asiyaya həmsərhəd Rusiya ərazilərində türk mənşəli muxtar qurumların kompakt olması da Kremli narahat edir. Eyni zamanda, Cənubi Qafqaz kimi, Orta Asiya da Avropanı Çinlə birləşdirəcək iqtisadi-ticari marşrutun üzərindədir. Əgər bu marşrut reallığa çevrilərsə, Kreml Rusiyanın iştirak etmə ehtimalı zəif olan yeni geoiqtisadi məkanla üzləşə bilər. Bu halda, Kremlin geopolitik iradəsinin Rusiya sərhədləri içərisinə sıxışdırılma təhlükəsi tamamilə realdır. Ona görə də Orta Asiyada bu prosesin iştirakçısı olan region dövlətlərinin daxili xaosa sürüklənməsi Rusiyanın da maraqlarına uyğun gəlir. Hər halda Kremlin bu regionda Rusiyanın əleyhinə olan geopolitik prosesləri əngəlləmək üçün bu, ən sərfəli senari kimi görünür. Bu səbəbdən də Orta Asiya uğrunda amansız mübarizə Özbəkistanda "Qazaxıstan variantı"nın tətbiqinə cəhd göstərilməsi ilə müşayiət olunur. Bu baxımdan, yaxın vaxtlarda Orta Asiyanın kimlər tərəfindən niyə qarışdırıldığı açıq-aşkar ortaya çıxmağa başlayacaq".

**İsmayıl Qocayev**



# Rusiya Qərbə qarşı siyasi blok yaradır

## İranın, Argentinanın və Braziliyanın BRİKS-ə qoşulmaq niyyəti görünür

**ABŞ, Böyük Britaniya, Kanada, Almaniya, İtaliya, Fransa və Yaponiyanın ötən həftə Almaniyada gerçəkləşən toplantısında əsas müzakirə mövzusu Rusiya olub. "Böyük yeddilər" Rusiyaya qarşı sanksiyaların sərtləşməsi barədə fikir mübadiləsi aparıblar.**

Ancaq hələ ki, Qərb dövlətlərinin ortaq qərarları Rusiyanı durdurmağa kifayət etmir. "Böyük yeddilər" Rusiya ilə Çin arasında tərəfdaşlıq münasibətlərindən də narahatdırlar. Onlar Çindən Moskvanın siyasətinə təsir etməsini istəyiblər. "Böyük yeddilərin" məntiqinə görə, Pekin Rusiyanın Ukraynaya qarşı işğalçı müharibəsini durdurmaq üçün Kremlə təzyiq etməlidir.

**"Atlas" Araşdırmalar Mərkəzi Elxan Şahinoğlu deyib ki, Pekin hökuməti Rusiya-Ukrayna müharibəsinə görə Qərbi ittiham etməkdə daha çox maraqlıdır. Analitikin fikrincə, "Böyük yeddilər" bir tərəfdən Pekini yola gətirməyə çalışırlar. Digər tərəfdən isə NATO-nun yeni konsepsiyasında Çin təhlükələrdən biri kimi dəyərləndirilir:** "Pekin bu dəyərləndirməni təxribatçı adlandırır. Hesab edir ki, NATO "soyuq müharibə" dövründəki baxışlarını hələ də davam etdirir. Pekin NATO-nun Avropanı qarışdırdığını, indi isə hədəf kimi Asiya qitəsini seçdiyini iddia edir. Bu arada, Kreml "böyük yeddilərə" qarşı BRİKS-in (Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika Respublikası) sıralarını genişlədirməyə qərar verib. Rusiyanın Xarici işlər naziri Sergey Lavrov artıq genişlənmə prosesinə start verildiyini bildirib. Lavron növbəti iki ölkənin adını da çəkib: "Argentina və İran layiqli namizədlərdir". İran BRİKS-ə üzv olmaq üçün müraciət göndərib. Argentinanın da Braziliyanın ardınca təşkilata qoşulmaq istəyi var. Rusiyanın məqsədi aydındır. Kreml BRİKS-i genişləndirmək yolu ilə ətrafında Qərbə qarşı siyasi blok formalaşdırmağa çalışır. BRİKS ölkələri Rusiyanın Ukraynaya qarşı işğalçı müharibəni dəstəkləmirlər. Buna baxmayaraq, BRİKS ölkələrinin Rusiya ilə əməkdaşlıqlarını davam etdirmələri və Kremllə təmaslarını davam etdirməsi də Prezident Vladimir Putin üçün vacibdir. Kreml BRİKS və Şanxay Əməkdaşlıq Təşkilatı vasitəsilə ABŞ əleyhinə çoxqütblü dünya formalaşdırmağa çalışır".

**İsmayıl**

# Xəzər beynəlxalq nəqliyyat qovşağına çevrilir

## Bir çox ölkələr dünya bazarına daha əlverişli çıxış imkanı qazanacaqlar



**"Xəzər dənizi regionu olduqca strateji əhəmiyyətə malikdir. Xəzəryanı dövlətlərin səmərəli əməkdaşlıq sisteminin mövcud olması bütün iştirakçı dövlətlərin maraqlarına cavab verir".**

*Bu barədə "Şərq"ə millət vəkili, STM İdarə Heyəti sədrinin müavini Elşad Mirbəşiroğlu bildirib. O qeyd edib:* "Nəzərə almaq lazımdır ki, istənilən çoğrafiyada sülhün və təhlükəsizliyin davamlı olması hər şeydən öncə məhz əməkdaşlığın xarakterindən asılıdır. Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti Aşqabadda keçirilmiş Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında çıxışı zamanı bu məqamları ayrıca olaraq vurğuladı. Müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində Xəzəryanı dövlətlərin ikitərəfli və çoxtərəfli əməkdaşlığının olduğunu vurğulayan Azərbaycan Prezidenti regionda sabitliyin və təhlükəsizliyin əsasında məhz bu amilin dayandığını qeyd etdi. Xəzərin hüquqi statusu məsələsi uzun illər mübahisə predmeti olaraq qalmaqda idi. 2018-ci ildə Aktau şəhərində Xəzərin hüquqi statusuna dair imzalanmış Konvensiya region dövlətləri arasında daha səmərəli qarşılıqlı fəaliyyətin və əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirəcək. Azərbaycan Prezidenti çıxışında Xəzəryanı dövlətlər arasında əsas əməkdaşlıq istiqamətlərini xatırladıb. Bu əməkdaşlıq istiqamətləri üzrə fəaliyyətin göstərilməsi üçün geniş normativ hüquqi sənədlər bazası mövcuddur. Konvensiyanın ratifikasiya edilməsi isə gələcəkdə imkanları daha da genişləndirəcək".

**E.Mirbəşiroğlu onu da vurğulayıb ki, cənab İlham Əliyev Xəzəryanı dövlətlərin əməkdaşlığının təşkili və genişləndirilməsi zamanı bərabərhüquqluluğun gözlənilməsinin prioritet olduğunu qeyd etməklə yanaşı, dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə hörmətlə yanaşılmasının vacibliyini nəzərə çatdırdı:** "Xəzər dənizi müasir mərhələdə beynəlxalq nəqliyyat qovşağına çevrilməkdədir. Mövcud unikal nəqliyyat infrastrukturu dünya bazarlarına daha əlverişli çıxış imkanlarının məhz Xəzər dənizi vasitəsilə təmin olunması imkanları mövcuddur. Ən əsası isə etibarlı və təhlükəsizlik investisiya mühitinin yaradılması bu istiqamətdə atılacaq vacib addımlardandır. Xəzər dənizinin beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevrilməsi prosesində Azərbaycanın mühüm rol oynadığı və Transxəzər beynəlxalq nəqliyyat marşrutunun səmərəli istifadəsi üçün ölkəmizin səyləri də Prezident İlham Əliyev tərəfindən diqqətə çatdırıldı. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin Azərbaycanın ərazisindən keçməsi ümumilikdə Xəzər regionunda nəqliyyat-logistika infrastrukturunun inkişafı istiqamətində ölkəmizin əhəmiyyətini ciddi şəkildə artırır. Aşqabadda yadda qalan mühüm məqamlardan biri də ondan ibarət oldu ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev Zəngəzur dəhlizini bir daha xatırladaraq, ölkəmizin atdığı addımların bütövlükdə beynəlxalq nəqliyyat əlaqələrinin inkişafı sahəsindəki roluna və təşəbbüslərinə bir daha diqqəti cəlb etmiş oldu. Azərbaycan Vətən müharibəsində tarixi qələbə qazanaraq, torpaqlarını işğaldan azad etdi. Hazırkı mərhələdə isə Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması və bərpası istiqamətində geinişmiqyaslı işlər getməkdədir. Ölkə Prezidenti tərəfindən bütün bu məqamlara toxunulması həm də postmünaqişə mərhələsinin yeni reallıqlarının xatırladılması kimi qiymətləndirilməlidir. Göründüyü kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Aşqabadda keçirilmiş Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında çıxışında ölkəmizin hazırda cərəyan edən proseslərdə önəmli rolunu və bir daha dəqiqliklə əsaslandırdı".

**Aygün Tahir**

# Yanacaqdoldurma məntəqələrində heç bir problem yaşanmır

## "Aİ-92 markalı benzinin satışında məhdudiyyətlər yarandığı haqda xəbərlər şayiədir"

**"SOCAR Petroleum" sosial şəbəkələrdə ölkədə müxtəlif növ yanacağın satışında problemlərin yaranması ilə bağlı yayılan məlumatlara aydınlıq gətirib. Şirkət bildirib ki, hazırda ölkədə hər hansı yanacaq növünün satışı ilə bağlı problem yoxdur. Qeyd edək ki, bəzi yanacaqdoldurma məntəqələrində müxtəlif növ yanacağın, xüsusilə Aİ-92 markalı yanacağın satışında problemlər yaranması barədə sosial şəbəkələrdə məlumatlar yayılıb.**

"SOCAR Petroleum" QSC-dən isə yayılan məlumatlara aydınlıq gətirilərək bildirilib ki, hazırda bütün yanacaq növlərinin satışı adi qaydada həyata keçirilir. "SOCAR Petroleum" QSC Azərbaycan ərazisində neft məhsullarının alqı-satqısının təşkil edilməsi və çoxsahəli nəqliyyat infrastrukturuna, beynəlxalq standartlara uyğun, keyfiyyətli təchizat xidmətinin həyata keçirilməsi məqsədilə 2008-ci ildə təsis edilib. QSC-nin 42 YDM şəbəkəsi və 11 neft terminal bazası fəaliyyət göstərir. Respublikada yeganə sıxılmış təbii qaz (CNG) terminalı və CNG şəbəkəsi olan QSC, ekoloji baxımdan təmiz olan CNG yanacağının tətbiqində liderdir. "SOCAR" brendi ilə fəaliyyət göstərən YDM-lərdə hər bir müştəri üçün yanacağın həcm dəqiqliyini yoxlamaq imkanı və digər üstünlüklər var.

Əgər yayılan məlumatlar həqiqətdirsə, yanacaqdoldurma məntəqələrində yanacağın satışı ilə bağlı niyə problem yaranıb?



**Məsələyə münasibət bildirən iqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında qeyd etdi ki, bu gün (dünən) səhər saatlarında yanacaqdoldurma məntəqəsində avtomobilinə yanacaq doldurub və hər hansı problemlə qarşılaşmayıb:**

- Şəxsən mən hər hansı problem yaşamadım, görmədim. Ola bilər hansısa yanacaqdoldurma məntəqəsində problem yaransın, lakin bu, individual xarakterli olacaq. Yanacaq satışında kütləvi, bir neçə yanacaqdoldurma məntəqəsini əhatə edən problem olduğunu düşünmürəm. Texniki qüsur da ola bilər. Mümkündür ki, yanacaqdoldurma məntəqələrindən hansındasa təchizat problemi yaranıb. Bu da sırf həmin yanacaqdoldurma məntəqəsiylə bağlı olacaq. Yəni burada yanacaqdoldurma məntəqələri şəbəkəsindən danışmaq mümkün deyil. Yanacaq satışında problem yaranıbsa, fərdi xarakterlidir.

F.İbrahimov bildirdi ki, ümumiyyətlə, avtomobil yanacağı təminatı ilə bağlı ölkədə problem olmamalıdır: - Neft məhsullarının təchizatı ilə bağlı infrastruktur kifayət qədərdir. Məntəqələrin yanacaqla təmin edilməsi üçün də kifayət qədər potensial, ehtiyat var. Anbarlar, məntəqələr var. Daşınmada da problem yoxdur. İdxalda da həmçinin. Yanacaq ehtiyatının azalması, yaxud qiymət artımı ilə bağlı da hər hansı məlumat verilməyib. İstehsal prosesi qaydasındadır. Yəni hazırda problemə səbəb olacaq bir səbəb yoxdur ortada. Ona görə də hesab edirəm ki, yanacaqdoldurma məntəqələrindən Aİ-92 markalı benzinin satışında məhdudiyyətlər yarandığı haqda xəbərlər əsasən şayiə xarakterlidir. Hansısa yanacaqdoldurma məntəqəsində günün hansısa saatında problem yaranıbsa, bu da qeyd etdiyim kimi, böyük ehtimalla, fərdi xarakterli olub. Bəlkə də təchizatı vaxtında icra edə bilməyiblər.

**İqtisadçı qeyd etdi ki, fəaliyyətdə olan bütün yanacaqdoldurma məntəqələri ehtiyatlarını Bakı Neft Bazasından alır.** Hər bir yanacaqdoldurma məntəqəsinin yeraltı rezervuarı var, bilirlər ki, nə qədər ehtiyatları var. İşlər elə qurulmalıdır ki, anbarda daim yetəri qədər ehtiyat yanacaq olsun. Ehtiyatlar sıfırlanmasın, çünki anbarları təchiz etmək vaxt aparır və belə vəziyyətdə satışda da problem yarana bilər.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Ekologiya və ətraf mühitin mühafizəsi

# Xəzərin səviyyəsi sürətlə azalır

## Elçin Bayramlı: “Neft-qaz yataqlarından sızan axıntılar da Xəzərin ekoloji sisteminin pozulmasına səbəb olur”

**Xəzər dənizinin problemlərinə həsr olunan hibrid formatda beynəlxalq konfrans keçirilib. ”İqlim dəyişmələri şəraitində Xəzər dənizinin səviyyə tərəddüdləri, proqnoz və uyğunlaşma tədbirləri” mövzusunda keçirilən konfransda Xəzəryanı ölkələrin mütəxəssisləri, beynəlxalq təşkilatların nümayəndələri və xarici ekspertlər iştirak ediblər. Konfransda Xəzər dənizinin hazırkı və gözlənilən səviyyə tərəddüdləri, həmçinin iqlim və səviyyə proqnozlarını nəzərə alaraq milli və regional uyğunlaşma tədbirlərinin müəyyən edilməsi üçün əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilib.**

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev konfrans iştirakçılarına Xəzər dənizinin aktual problemləri, bu sahədə ölkəmizdə görülən tədbirlər, milli və regional uyğunlaşma planlarının və ”Xəzər dənizinin ətraf mühitinin mühafizəsi üzrə Çərçivə Konvensiyası” timsalında regional əməkdaşlığın əhəmiyyəti barədə məlumat verib.

M.Babayev rəhbərlik etdiyi qurum tərəfindən Xəzər hövzəsinin təmizlənməsi üzrə bir sıra tədbirlər keçirildiyini deyib. Onun sözlərinə görə, nazirlik həmçinin Xəzər dənizində suyun səviyyəsinin azalması məsələsi üzrə tədqiqatlar aparır. Bu istiqamətdə ekspertlərlə, Xəzər regionu ölkələri ilə və ixtisaslaşmış təşkilatlarla regional əməkdaşlıq həyata keçirilir: ”Hazırda Xəzər regionu həll olunmamış ekoloji problemlərin mənfi təsiri ilə bağlı bir sıra çətinliklərlə üzləşir.

Bioresursların azalması, dəniz mühitinin çirklənməsi kimi antropogen təsirlərlə yanaşı, təbii mənşəli problemlər - iqlim dəyişikliyi nəticəsində dəniz səviyyəsinin uzunmüddətli aşağı düşməsi dəniz ekosistemlərinin deqradasiyasına gətirib çıxarır. Xəzər dənizinin səviyyə tərəddüdləri sahilboyu zonaların vəziyyətinə və iqtisadiyyatın dənizlə bağlı olan bir sıra sahələrinə mənfi təsir göstərir”.

Nazir həmçinin Xəzər dənizinin ətraf mühitinin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə məsələləri Xəzəryanı ölkələrin milli siyasətinin prioritet istiqamətlərindən biri olduğunu deyib: ”Təsadüfi deyil ki, keçən həftə Aşqabadda keçirilən Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının Zirvə Toplantısında da bu məsələlərə xüsusi diqqət yetirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev toplantıda çıxışı zamanı Xəzər dənizinin ətraf mühitin bugünkü vəziyyətinin və dəniz səviyyəsinin aşağı düşmə dinamikasının narahatlıq doğurduğunu, bu problemlərin həlli ilə əlaqədar əməkdaşlığın genişləndirilməsində maraqlı olduğumuzu bildirib”.

M.Babayevin sözlərinə görə, Azərbaycanda da Xəzər dənizinin ətraf mühitinə mənfi təsirləri minimuma endirmək üçün tədbirlər görülür.

Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində ekoloji vəziyyətin qiymətləndirilməsi, dənizin bioloji ehtiyatlarının və hidroloji vəziyyətinin öyrənilməsi və dəniz ətraf mühitinə mümkün neqativ təsirlərin müəyyənləşdirilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ”Əlif Hacıyev” elmi-tədqiqat gəmisi ilə mütəmadi ekspedisiyalar keçirilir:

”Biz bu ekspedisiyalar zamanı toplanmış monitorinq məlumatları ilə bütün maraqlı tərəflərlə bölüşməyə hazırıq. Eyni zamanda Xəzər dənizində birgə ekoloji monitorinqlərin planlaşdırılması və həyata keçirilməsini təklif edirik.

Burada regional əməkdaşlığın, xüsusilə ekoloji problemlərin həllində Xəzəryanı ölkələrin səylərinin birləşdirilməsi üçün hüquqi baza yaradan ”Xəzər dənizinin ətraf mühitinin mühafizəsi üzrə Çərçivə Konvensiyası”nın mühüm rolunu qeyd etmək lazımdır.

İnanıram ki, akademik sektor, müvafiq təşkilatların mütəxəssisləri, beynəlxalq və qeyri-hökumət təşkilatlarının nümayəndələri, müstəqil ekspertlərin qoşulduğu konfrans Xəzər dənizinin ekoloji problemlərinin müzakirəsi və vəziyyətdən çıxış yollarının araşdırılması üçün platforma rolunu oynayacaqdır.

Bununla yanaşı Xəzər dənizinin dayazlaşma səbəbləri, onun fəsadlarının yumşaldılmasına yönəlmiş milli uyğunlaşma planları ilə yanaşı regional uyğunlaşma tədbirlərinin müəyyənləşdirilməsi hər bir Xəzəryanı ölkənin dayanıqlı inkişafı üçün böyük əhəmiyyət kəsb edəcəkdir”.



Dövlət Neft Şirkətinin (SOCAR) vitse-prezidenti Xaliq Məmmədov isə qeyd edib ki, Xəzərdə suyun səviyyəsi dəniz faunasının vəziyyətinə ciddi təsir edir.

Onun sözlərinə görə, gəmilərin daxil ola bilmədiyi dayaz sularda tədqiqat aparmaq asan deyil: ”Xəzərin səviyyəsi sürətlə azalır və əgər bu tendensiya davam edərsə, SOCAR öz avadanlıqlarının texniki xidməti məsələsində risklərlə üzləşəcək”. Vitse-prezident qeyd edib ki, SOCAR-ın atmosferə zərərli tullantıların azaldılması, dekarbonizasiya üzrə strategiyaları var. Biz bu istiqamətdə ilk addımı atan birinci iri şirkət olduq və bu sahədə layihələri reallaşdırmaqda davam edəcəyik”.

”BMT Azərbaycan hökuməti ilə birgə Xəzər dənizində dəniz səviyyəsinin azalmasının qarşısının alınması üzrə bir sıra tədbirlər keçirəcək”, bunu isə sözügedən konfransda iştirak edən BMT-nin Ətraf mühit proqramının Avropa bürosunun regional əlaqələndiricisi, Xəzər dənizinin ətraf mühitinin mühafizəsi üzrə Çərçivə Konvensiyasının müvəqqəti katibliyinin əlaqələndiricisi Mahir Əliyev deyib.

Onun sözlərinə görə, Azərbaycan onilliklər ərzində BMT ilə əməkdaşlıq edir və bu əməkdaşlıq qarşılıqlı səmərəyə əsaslanır. BMT iqlim dəyişiklikləri, ətraf mühitin mühafizəsi, su hövzələri səviyyəsinin dəyişiklikləri sahəsində tədbirlər keçirir. Bu təşəbbüslər çərçivəsində Azərbaycan tərəfi ilə Xəzər dənizinin akvatoriyasında müvafiq işlərin yerinə yetirilməsi nəzərdə tutulur”.

**”Sağlam Cəmiyyət” Hərəkatının rəhbəri Elçin Bayramlı isə ”Şərq”ə açıqlamasında Xəzər dənizi ilə bağlı bu cür beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsini son dərəcə vacib hal kimi dəyərləndirib:** ”Dəniz səviyyəsinin aşağı düşməsi, flora-faunasının azalması kimi çox ciddi problemlər var. Xəzər dənizi qapalı su hövzəsi olduğuna görə, qlobal quraqlıq və istiləşmə göldə buxarlanmanın artmasına səbəb olur. Eyni zamanda çaylardan gələn suyun azalması da dəniz sıviyyəsinin azalmasının səbəblərindən biridir. 100 illərdi sahilyanı ölkələrdən Xəzər dənizinə çox sayda sənaye tullantıları və kanalizasiya sularının axıdılması prosesi gedir və çirklənməsinin təmizlənməsi istiqamətində heç bir addım atılmır. Neft-qaz yataqlarından sızan axıntılar da Xəzərin ekoloji sisteminin pozulmasına səbəb olur. Hesab edirəm ki, sahilyanı ölkələr bu mövzuda çox sərt qərarlar qəbul etməlidir. Dənizə axıdılan suların təmizlənməsi ilə bağlı ciddi tələblər olmalıdır. Sənaye müəssisələrində xüsusi filtirlər qoyulmalıdır. Dənizə axıdılan kanalizasiya axıntıları da xüsusi qurğularla təmizlənməlidir. Suyun səviyyəsinin azalması iqlim dəyişikliyi ilə bağlı olduğundan onun qarşısının alınması bizim gücümüz çatan bir şey deyil. Balıq ovlarına müəyyən məhdudiyyətlər qoyulmalı, dənizə buraxılan balıq növlərinin sayı artırılmalıdır. Xəzər qapalı göl hövzəsi olduğundan ora atılan tullantılar Okeanlara axıb ərimir. Dənizin üzərində meydana gələn kimyəvi maye təbəqəsi dənizdəki bütün canlıların və dənizin ekosisteminin məhvinə səbəb olur”.

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub




# Vətəndaşı qəbul edib, dinləmək hələ problemin həlli deyil

## Konkret görülən işlərlə bağlı ortaya nəticə çıxarılmalıdır

**Hökumət Evində Vətəndaşların Qəbulu Mərkəzi fəaliyyətə başlayıb. Bu barədə İqtisadiyyat Nazirliyindən məlumat verilib. Qeyd olunur ki, Mərkəzdə vətəndaşların qəbulunu nazirliklə yanaşı, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman), Energetika, Mədəniyyət və Kənd Təsərrüfatı nazirlikləri, Ailə, Qadın, Uşaq Məsələləri üzrə Dövlət Komitəsi, Əqli Mülkiyyət Agentliyi, ”Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC-nin məsul əməkdaşları reallaşdırırlar.**

Mərkəz Hökumət Evində yerləşən bütün dövlət orqanlarına vahid məkanda müraciət etmək imkanı yaradır.

Vətəndaşların Qəbulu Mərkəzində müasir avadanlıqlarla təchiz olunmuş ümumi qəbul sahəsi, videoqəbul otaqları, aidiyyəti məsul şəxslərin qəbul üçün xüsusi otaqları, ”Ana və uşaq otağı”, həkim və psixoloq fəaliyyət göstərir.

Həmçinin Mərkəzdə qeyd edilən qurumların mütəxəssisləri ilə yanaşı, könüllülər də qəbula gələn vətəndaşlara dəstək verəcək.

Xidmət sahələri videomüşahidə üsulları vasitəsilə nəzarətdə saxlanılacaq.

**Millət vəkili Razi Nurullayev ”Şərq”ə açıqlamasında bildirib ki, vətəndaşların şikayətlərinin qəbul edilməsi, dəyərləndirilməsi, həlli yollarının göstərilməsi ilə bağlı ciddi problemlər mövcuddur:**

”Müraciət edən insanların bir çoxunun şikayət etdikləri məsələlərlə bağlı lazımi addımlar atılmalıdır. Lakin bəzən vətəndaş məmurun qəbuluna düşə bilmir. Yaxud da şikayət məktubunu aidiyyəti üzrə bir qurum başqasına, o da digərinə yönəldir. Beləliklə, məktub bir neçə idarə arasında dövr edərək, bumeranq kimi həll olunmamış vəziyyətdə, yenidən vətəndaşa qayıdır. Bu, on minlərlə insanın başına gələn bir hadisədir. Nəticə etibarilə hamı narazı qalır. Çünki problemlər aradan qaldırılmadığı müddətcə üst-üstə toplanır. Köhnə məsələlərin də üzərinə yeniləri gəldikdə artıq sosial narazılıqlar pik həddə çatır. Ona görə də problemlərə zamanında çarə qılınmalıdır. Müvafiq orqanlar məsuliyyəti üzərlərindən atmamalıdır. Vətəndaşın bir məsələsinə aydınlıq gətirmək onun növbəti müraciəti ünvanlamasına yol açacaq düşüncəsi dövlət əxlaqına uyğun yanaşma deyil. Hazırda dövlət idarələrinin qəbullarla bağlı bir çox yeni metodları, vasitələri yaradılır. Alqışlayıram. Əlbəttə, vətəndaşları qəbul edib, dinləmək lazımdır. Amma konkret olaraq, ortaya nəticə qoyulmalıdır. Ayda bir dəfə daxil və həll olan şikayətlərlə bağlı hesabat verilməsi arzuolunandır. Bəzən 10 min şikayət məktubunun 3 mininin qaydaya salınması barədə açıqlama verilir. Araşdırma zamanı məlum olur ki, onun 500-ü tam müsbət həll edilməyib. Hamısı yarımçıqdır. Düzgün statistika verilməlidir. Başımızın altına yastıq qoyurlar, amma sosial narazılığı azalda bilmirlər. Cənab Prezidentin göstərişi ilə dövlət idarələrinin məsul əməkdaşları rayonlara təhkim olunub. Qəbul edilən şikayətçilərin 40 nəfərindən təxminən 30-nun problemi yerində həll oluna bilir. Əgər bir nazir, onun müavini, yaxud komitə sədri problemlərin 90 faizini yerindəcə qaydasına sala bilirsə, deməli, məsələ məmurun can yandırmasında, laqeydliyindədir. Ona görə də ciddi müzakirələr aparılmalıdır. Məmurlar vətəndaşların şikayətlərinə qarşı daha həssaslıq göstərməli və cavabdehlik daşımalıdırlar”.

*"Ayda bir dəfə daxil və həll olan şikayətlərlə bağlı hesabat verilməsi arzuolunandır"*

**Sücayət Mehti**

# Dini Komitə ciddi işlər aparır

## Əvvəllər QMİ tərəfindən sırf İranda təhsil alanlar məscidlərə təyinat alırdı

**Din xadimi olmaq üçün 39 vakant yer üzrə 267 namizəd müraciət edib.**




”Dini etiqad azadlığı haqqında” qanuna edilən dəyişikliyin 8-ci maddəsinə əsasən din xadimlərinin təyinatı və attestasiyası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin səlahiyyətləri sırasına daxil edilib. Komitədən verilən məlumata görə, ”İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası” təsdiq olunub. Qaydalara uyğun olaraq din xadimlərinin təyinatı və attestasiyası üçün müsahibə proqramı tərtib edilib. Müsahibə və Attestasiya komissiyaları formalaşdırılıb. Din xadimləri ilə bağlı məsələ, daha doğrusu, onların dini savadı, müasir elmlərə yiyələnməsi, dünyagörüşü, dövlətçiliyə, milli dəyərlərə bağlılığı illərdir müzakirə olunur. Xüsusən, dini xadimlərin xidmətə qəbulu zamanı ciddi sınaqdan, testdən keçirilməsinin zərurəti vurğulanır. Ümid edilir ki, dini xadimlərin təyinat məsələsinin Qafqaz Müsəlmanları İdarəsindən alınaraq Dini Komitəyə həvalə edilməsi müsbət nəticə verə bilər.

**İlahiyyatçı Tural İrfan ”Şərq”ə açıqlamasında bildirib ki, məscidlərə imamların təyin edilməsi məsələsinin Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinə verilməsi müsbət haldır. Komitədə vakant yerlərə keçirilən imtahanlardakı proqram da çox mükəmməldir. Ekspertə görə, xadimlərin dini savadı ilə yanaşı dünyəvi bilgilərə də yiyələnməsi olduqca vacibdir:** ”Çünki əvvəllər bu sahədə bir çox qüsurlar olub. Qafqaz Müsəlmanları İdarəsi tərəfindən sırf İranda təhsil alanlar məscidlərə təyinat alırdı. Hazırda işləyən axundların çoxu İran təhsili alanlardır. Hərəsinin də öz himayədarı var. İndi görək Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin onları dəyişməyə, yeni təyinatlara gücü yetəcəkmi? Heç bir ilahiyyat təhsili olmayan şəxslər ölkədə həm xurafatı, həm də sətiraltı şəkildə irançılığı yayırlar. Ancaq onlar elə kök atıblar ki, inanmıram Komitənin onları səhnədən uzaqlaşdırmağa gücü çatsın. Cəmiyyət özü də ayıq-sayıq olmalı, hər nağılbaza inanmamalıdır. Ölkədə ali təhsilli minlərlə ilahiyyatçı var. Ancaq gizli əllər onların diplomunu rədd edərək sırf iranyönlü, savadsız, təhsilsiz olanları qabağa verir”.

*"Ölkədə ali təhsilli minlərlə ilahiyyatçı var. Ancaq gizli əllər onların diplomunu rədd edərək sırf iranyönlü, savadsız, təhsilsiz olanları qabağa verir"*

**Alim vurğulayıb ki, ümumiyyətlə, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin fəaliyyəti təqdirəlayiqdir və ümidlər böyükdür:** ”İdarə savadlı kadr potensialına malikdir. Dövləti və dövlətçilik ənənələrini əsas götürdüyünə görə inanıram ki, müsbət nəticələrə nail olunacaq. QMİ-nin vurduğu ziyan, dini sahədəki özbaşınalıq da ümid edirəm ki, nə vaxtsa hüquqi qiymətini alacaq. Çünki ölkədə məzhəbçiliyi, xurafatı, irançılığı bu idarə yayır. Hətta mən hesab edirəm ki, Qafqaz Müsəlmanları İdarəsinin bütün funksiyaları dondurulmalı, ciddi yoxlama aparılmalı və səlahiyyətləri Komitəyə dövr edilməlidir. Çünki İranın fətvaları işlə işləyən Qazılar Şurası Komitəyə maneçilik yaradacaq, ikitirəlik olacaq. Komitənin fəaliyyəti daha da güclənməlidir ki, görülən işlər müsbət nəticə versin”.

**İsmayıl Qocayev**

# Azərbaycanın Türkiyəyə qardaş dəstəyi...

## Aqil Ələsgər: “Azərbaycan FHN-in, həm də dövlətin bu məsələyə reaksiyasını sadəcə alqışlamaq olar”

**Ötən illərdə olduğu kimi,Türkiyədə yenidən meşə yanğını baş verib. Marmaris rayonunda baş verən meşə yanğınının böyük ölçüdə nəzarət altına alındığı bildirilsə də, ətrafa dəyən ziyan hələ də davam edir. Türkiyə mətbuatı yanğının davam etdiyi ərazilərdən yeni görüntülər yayıb. Küləyin təsiri ilə ətrafa yayılan yanğın ümumilikdə 2884 hektar ərazini əhatə edir. Ötən ildə olduğu kimi, indi də Azərbaycan yanğınsöndürənləri qardaş ölkəyə dəstək göstərir.**



Azərbaycan Fövqəladə Hallar Nazirliyinin amfibiya təyyarəsi Türkiyəyə yola düşüb. ”BE-200ÇS” amfibiya tipli təyyarəsi 10 nəfərlik heyətlə Muğla bölgəsinin Dalaman Hava Limanında eniş edib.

2021-ci ildə olduğu kimi bu gün də Azərbaycanın öz qardaş ölkəsinə köməyə tələsməsi və əlində olan bütün imkanları səfərbər etməsi qürur hissi doğurur. Azərbaycanla Türkiyənin dırnaqla ət kimi ayrılmaz olduğunu deyən ”Yeniçağ” media qrupunun rəhbəri Aqil Ələsgər ”Şərq”ə açıqlamasında bildirib ki, belə məsələlərdə Azərbaycan və Türkiyə münasibətləri digər ölkələrə örnəkdir: ”Azərbaycanın Türkiyənin yardımına tələsməsi təəccüblü hal deyil. Bu, bizim əlaqələrimizdə normal bir hal kimi qiymətləndirilməlidir. Əlbəttə, biz istəmirik ki, hansısa bədbəxt hadisələr olsun. Lakin yay aylarıdır və belə hadisələrin olması gözləniləndir. Azərbaycan FHN-in, həm də dövlətin bu məsələyə reaksiyasını sadəcə alqışlamaq olar”.

**Nihat Müzəffər**




# Xaricdə təhsil alan tələbələr ölkəyə qayıda bilmirlər

## Ekspertlər hesab edir ki, hökumət problemi heç olmasa ucuz çarter reysləri ilə həll etməlidir

**2020-ci ilin mart ayında Azərbaycanda tətbiq olunan xüsusi karantin rejimi ilə əlaqədar müvəqqəti bağlanan quru sərhədləri hələ də açılmayıb. Bu səbəbdən xaricdə yaşayan vətəndaşlarımızın, o cümlədən tələbələrimizin xeyli hissəsi Vətənə qayıda bilmir.**

Xüsusən də Türkiyədə təhsil alan tələbələrin simasında bu məsələ ciddi narazılıq doğurur. Hazırda yay tətili olmasına rəğmən onlar evlərinə gələ bilmir. Buna səbəb kimi təyyarə qiymətlərinin baha və quru sərhədlərinin bağlı olmasını göstərirlər.

Naxçıvan-Türkiyə arasında olan quru sərhədlərin bağlanması isə vəziyyəti daha da pisləşdirib. Hazırda tələbələrin evlərinə necə qayıdacaqları sual altındadır.

Qeyd edək ki, rəsmi orqanlar sərhədə gediş-gəlişin məhdudlaşdırılmasına səbəb kimi koronavirus pandemiyasını göstəriblər. Halbuki, artıq qonşu ölkələr pandemiya ilə bağlı sərhədə tətbiq etdikləri məhdudiyyətləri ardan qaldırırlar. Üstəlik, Naxçıvanla Türkiyə arasında quru sərhəd pandemiyanın ən kəskin vaxtında belə açıq olub.

Ölkə ictimaiyyəti isə hesab edir ki, artıq əksər ölkələr pandemiya səbəbindən bağladıqları quru sərhədlərin açılması barədə qərar verirlər. "Nəzərə alsaq ki, ölkədə epidemioloji vəziyyət sabitdir, həm Azərbaycanda, həm də qonşu ölkələrdə koronavirusa yoluxma sayında kəskin azalma var, o zaman quru sərhədlərin açılması qərarı verilməlidir.

**QHT sədri Seymur Verdizadə şəxsi hesabında Türkiyədə təhsil alan azərbaycanlı tələbələrin hazırda acınacaqlı vəziyyət yaşadığını deyib və onların problemlərinin həlli üçün real addımların atılmasını vacib hesab edib:** "Quru sərhədlər bağlı olduğu üçün tələbələr Vətənə ancaq təyyarə ilə qayıda bilərər. AZAL isə biletin qiymətini ən ucuz 500 manat müəyyənləşdirib. Hətta bu məbləğ 800 manata qədər də yüksələ bilir. Buna görə də tələbələrimiz Türkiyə küçələrində ac-yalavac, əsir-yesir qalıblar".

**İqtisadçı Məhəmməd Talıblı isə məsələni Rusiyada yaşayan 2 milyondan artıq azərbaycanlının problemi üzərindən qabardıb:** "Rusiyada 10 minlərlə insan ağlagəlməz sıxıntılarla sərhəd bölgələrində tezliklə ölkələrinə qayıtmaq istəyirlər. Lakin onlar bu intizarla günlərini-günlərinə calayıb yaşayırlar. Rusiyada iş həyatı pozulub. Ölkə əvvəlki iqtisadi sistemdə çalışmır. Sanksiyalar iqtisadiyyatda daha dərindən hiss olunmağa başlayır. Bir şeyi başa düşməliyik ki, iş dalınca xarici ölkələrə gedən öz vətəndaşlarımızı başqa ölkədə zorən saxlamaq çıxış yolu deyil. Ölkədə məşğulluq siyasətində ciddi irəliləyişlər həyata keçirilməlidir. İnvestisiya mühiti yumşaldılmalıdır. Biznes iqlimi dəyişməlidir".

Onu da bildirək ki, İrana da gediş-gəliş dayanıb, Gürcüstanda yaşayan soydaşlarımız da eyni aqibəti yaşayır. Təyyarə biletləri çox baha olduğundan bir çox insanlar hava yolu ilə Vətənə qayıtmaq imkanına sahib deyil.

**Millət vəkili Aqil Abbas isə deyib ki, tələbələrin aqibətini düşünməli olan adamlar ayrı şeylər düşünürlər:** "Onları tələbə və onların aqibəti maraqlandırmır. Sərhədləri bağlayanları, təyyarə qiymətini fantastik şəkildə qaldıranları heç vaxt tələbə maraqlandırmayıb. Dəfələrlə parlamentdə bu məsələni qaldırmışıq, amma bizi eşidən yoxdur. Turizmin ən şıdırğı vaxtında bütün dünya quru yollarla hərəkət edir. Ötən həftə Naxçıvan-Türkiyə quru sərhədinin bağlanması, görünür, kimlərəsə sərf edir. Hər dəfə təklif olunur, amma AZAL qiymətləri endirmir. AZAL dövlət içində dövlətdir. Hökumətin və heç kimin AZAL-a gücü çatmır. O, ayrıca dövlətdir və özünün Prezidenti, sərəncamları, qanunları var. Görünən odur ki, tələbələr evlərinə qayıda bilməyəcəklər. Belə çıxır ki, Azərbaycanda söz sahibi Cahangir Əsgərovdur. Ona da heç kimin gücü çatmır".

**Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın sədri Azər Allahverənov da "Şərq"ə açıqlamasında bu qədər vaxt ərzində quru sərhədlərinin bağlı qalmasının çox ciddi məsələ olduğunu deyib. Onun sözlərinə görə, uzun zamandır quru sərhədlərin bağlı qalması ilə bağlı cəmiyyətdə ciddi narazılıqlar var:** "Hər dəfə mətbuata açıqlamalarımızda biz də bu barədə danışır, sərhədlərin açılmasının labüd olduğunu dilə gətiririk. Amma müəyyən səbəblərdən sərhədlər hələ də açılmır. Hətta bu yaxınlarda Naxçıvan-Türkiyə arasında olan quru sərhədlərin bağlanması ilə bağlı da rəsmi qərar verildi. Hansı ki pandemiyanın gərgin dönəmlərində belə insanlar həmin yol ilə gedib- gələ bilirdilər".

*A.Allahverənovun sözlərinə görə, vətəndaş maraqlarının qorunması dövlət üçün piroritet məsələlərdəndir. Quru sərhədlərin bağlanması isə elə bir məsələdir ki, az qala hamı bundan gileylənir:* "Xüsusən də xaricdə yaşayan, doğmaları xaricdə yaşayan insanlar üçün bu problemin həlli çox mühüm şərtdir. Təyyarə biletləri həddindən artıq baha olduğu üçün hamının hava yolu ilə gəlmək imkanı yoxdur. Xaricdə yaşayan insanların çox az bir hissəsi ailəvi olaraq ölkəyə təyyarə ilə gəlmək imkanına sahibdir. Təsəvvür edin, Rusiyaya ikitərəfli bilet təxminən 1500-1600 manat məbləğindədir. Bu da haqlı olaraq insanların narazılığına səbəb olur. Bir halda ki ölkədə epidemioloji vəziyyət sabitdir, yoluxma sayı kritik həddə deyil, onda quru sərhədlərinin bağlı qalması hansı məntiqə dayanır?".

Şura sədri deyib ki, əgər quru sərhədlər bir müddət daha bağlı qalacaqsa, o zaman dövlət orqanları bu sahədəki problemlərin aradan qaldırılması üçün real addımlar atmalıdır. Ən azı müəyyən kateqoriyalardan olan insanlar üçün gediş-gəliş imkanları əlçatan olmalıdır. Tələbələr və digər həssas qruplara daxil olan şəxslər müvafiq qurumda qeydiyyatdan keçməklə ölkəyə daha ucuz yolla gələ bilsinlər. Konkret olaraq xaricdə oxuyan tələbələrin ölkəyə qayıda bilməmələrinə gəldikdə isə A.Allahverənov qeyd edib ki, bu problemin açarı çarter reysləridir: "Türkiyədə və başqa ölkələrdə təhsil alan, maddi səbəblərdən evlərinə qayıda bilməyən tələbələri qeydiyyata alıb müxtəlif reyslərlə onların Azərbaycana gətirilməsini təmin etmək olar. Hesab edirəm ki, aidiyyəti strukturlar bu məsələ üzərində ciddi düşünməli, ölkədə və xaricdə yaşayan vətəndaşların maraqlarını təmin etməlidir".

**Şəymən Bayramova**

# Bahalaşmanı yaradan məmur inhisarçılardır

## Onlar bazara istədikləri qiyməti diktə edə bilirlər




**Son günlər Bakıda bəzi mağazalarda siqaret qıtlığı yaşanır. Alıcılar hesab edir ki, bu, siqaretin yaxın günlərdə bahalaşacağından xəbər verir.**

Onların fikrincə, ölkədə tütün məmulatlarının qıtlığı yoxdur, sadəcə, mağazalar malları qiymətlər artandan sonra satmaq istəyirlər. Bununla belə siqaret satışını həyata keçirən mağazalar da var və onlarda qiymətlərin əvvəlki günlərlə müqayisədə təxminən 10 qəpik artdığı müşahidə olunur.

**Siqaret qiymətlərinin bahalaşması barədə "Şərq"ə danışan iqtisadçı-alim Nazim Bəydəmirli bildirib ki, bazarda digər istehsalçılar azdır və tələbi qarşılamır:**

"Belə hallar tələb və təkliflə bağlı problemlərdən irəli gəlir. Tələb çoxdur, təklif azdır deyə qiymətlər bahalaşır. Əks halda isə ucuzlaşır. Rəqabət mühiti mövcud, möhkəmlənmiş bazar iqtisadiyyatı olan ölkələrdə bahalaşma ilə yanaşı ucuzlaşma müşahidə edilir. Azərbaycanda isə inhisarçı istehsalçılar var. Müxtəlif məhsulların satışında, istehsalında, idxalında monopoliya mövcuddur. Onlar istənilən qiyməti diktə edə bilərlər. Çünki başqa təklif irəli sürən yoxdur.

Ona görə məmur sahibkarın istənilən qiyməti artırması mümkündür. Əsaslandırmağa ehtiyac duyulmur, müxtəlif bəhanələr söyləyirlər. Tutalım, xammalın qiyməti yüksəlib və s.

Müəyyən malın istehsalı üçün xammal bazasını təmin etmək, stimullaşdırmaq lazımdır. Azərbaycanda həm kənd təsərrüfatı, həm də emal sənayesi məhsullarının istehsalında məmur sahibkarlığı səbəbindən inhisarçılıq var. Bu da mal və xidmətləri bahalaşdırır".

**Aygün Tahir**

### Elanlar

Göyçay şəhər dindarlarının dini icmasına məxsus şəhadətnamə, nizamnamə, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi, Suraxanı Rayonu Dövlət Yanğından Mühafizə İdarəsinin əməkdaşı Məmmədov Orxan Rasim oğluna verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

"İSELA" MMC-yə məxsus VÖEN 2906305351, Asan imza nömrəsi, möhür itdiyi üçün etibarsız sayılır.

Qaraçay fərdi şirkətə məxsus "İVESO-Astra" yük maşınının EA 943 TR 13 i/o - hər iki tranzit nömrəsi itdiyi üçün etibarsız sayılır.

Həsənov Rüfət Nazim oğluna məxsus "PİLOT-İNŞAAT-A" MMC tərəfindən - Bakı şəhəri, Nəsimi rayonu, Səməd Vurğun küçəsində çoxmənzilli yaşayış binasının 2 saylı girişin 13-cü mərtəbəsində 74,4 m2-dən ibarət mənzilin alqı-satqı müqaviləsi itdiyi üçün etibarsız sayılır.

# "Qoy, ədalət zəfər çalsın"

## Elçin Bayramlı: "Hadisədə qadınların böyük əksəriyyəti haqlı tərəfi, yəni sürücünü müdafiə etdi"

**Bir neçə gün əvvəl Sumqayıtda qadına təzyiq göstərərək avtobusdan çıxaran sürücü Aqil Kosayev işinə geri qaytarılıb. Sürücü "ARB Xəbər"ə açıqlamasında məsələyə hüquqi qiymət verildiyini deyib və baş verənlər haqda danışıb.**

"İşıqforda düşməyi tələb edirdi. Mən də ikinci xətt üzrə yaşıl işıqda hərəkət edirdim. Ona görə də qapını açmaq imkanı olmadı. Bir-birimizi başa düşmədik, hadisə baş verdi. İşimiz elə bir işdir ki, birinci növbədə səbirli olmaq lazımdır. Belə bir şey olmamalıydı. Çalışarıq, bir də olmasın", - sürücü bildirib.

Qeyd edək ki, sürücünün işdən çıxarılması sosial şəbəkə istifadəçilərinin əksəriyyəti tərəfindən narazılıqla qarşılanmışdı. Görünür, aidiyyəti üzrə qurumlar ictimai rəyi nəzərə alaraq sürücünü yenidən işə qaytarıb.

**Sürücünün işə qaytarılmasında medianın və ictimai rəyin böyük təsiri olduğunu söyləyən "Sağlam Cəmiyyət" Hərəkatının rəhbəri Elçin Bayramlı "Şərq"ə açıqlamasında bildirib ki, başqa hallarda da belə addım atılsa, istənilən məsələnin ədalətli həllinə nail olmaq mümkündür:** "Baş verən hadisədə sərnişin günahkar idi. Sürücünü işdən çıxarmaq ağır cəzadır. İctimaiyyətin və medianın hadisəni qabartması nəticəsində ədalət bərqərar oldu. Əgər sürücü işinə qaytarılmasaydı, bu, sosial-psixoloji cəhətdən cəmiyyətə mənfi təsir göstərərdi və ədalətə inamı azaldardı.

Belə hallar öncə araşdırılmalı və daha sonra tədbir görülməlidir. Ümumiyyətlə, sürücünü bir səhvinə görə işdən çıxarmaq düzgün deyil, bu, işçi haqlarının pozulması deməkdir.




Son zamanlarda feministlərin təbliğatı fonunda hər bir durumda qadını haqlı sayırdılar. Amma baş verən hadisədə qadınların böyük əksəriyyəti haqlı tərəfi, yəni sürücünü müdafiə etdi. Cəmiyyətimiz çox gözəl və ədalətli nümunə sərgilədi".

**Nihat Müzəffər**

# Uşaq bağçaları həmişə yeyinti mənbəyi olub

## Monitorinqlər davam etsə, hələ çox direktorlar işdən çıxarılacaq

**Azərbaycanda 11 uşaq bağçasının müdiri işdən çıxarılıb. Nazirlikdən bildirilib ki, qurum tərəfindən məktəbəqədər təhsil müəssisələrində monitorinq aparılıb:**

"Tərtər rayonunda yerləşən Qazyan kənd körpələr evi-uşaq bağçası, Hacıqərvənd kənd körpələr evi-uşaq bağçası, Bəyimsarov kənd körpələr evi-uşaq bağçası, Hüsənli kənd körpələr evi-uşaq bağçası, və Qarağacı kənd körpələr evi-uşaq bağçası, həmçinin Saatlı rayonu Şirinbəy kənd körpələr evi-uşaq bağçası, Ucar rayonunda yerləşən Yuxarı Şilyan kənd körpələr evi-uşaq bağçası və Qarabörk kənd 2 nömrəli körpələr evi-uşaq bağçası, Qax rayonu Meşəbaş kənd 38 nömrəli uşaq bağçası, Lerik rayonunda yerləşən Qosmalian kənd körpələr evi-uşaq bağçası və Hamarat kənd uşaq bağçasının müdirləri ilə bağlanmış əmək müqaviləsinə xitam verilib".

Monitorinq zamanı sözügedən müəssisələrdə ərzaq təminatı, ərzaq və mətbəxin saxlanılma vəziyyəti, tədris vəsaitlərinin təminatı, uşaqların davamiyyətinin təşkili, sənədləşmənin aparılması, sanitar-gigiyena qaydalarına əməl olunması və digər sahələrdə ciddi nöqsan və çatışmazlıqlar aşkarlanıb.



**Təhsil eksperti Elşən Ramizoğlu "Şərq"ə açıqlamasında bildirib ki, bağçalar icra hakimiyyətlərinin tabeliyində olanda ona "pul yeyintisi" kimi yanaşılıb:** "İnsan nə qədər vicdansız olsun ki, uşaqlar üçün verilən çörəyi satıb, gəlir götürsün. Bağçalara verilən ərzaqların əksəriyyətini müdirlər satıb, pul qazanırdı. Monitorinq davam etsə, daha çox direktor işdən çıxarılacaq. Bağça müdirlərinin əksəriyyəti rüşvət ilə işə götürülüb və ya tanışlıqla orda oturub".

**Ekspert kənd yerlərində də dəhşətli məqamlar olduğunu vurğulayıb:**

"Təsəvvür edin, elə bağçalar var ki, kənd icra nümayəndəsi o bağçada nə qədər pul qazanıb. Ancaq qıraqdan o bağçaya baxsaq, elə bilərik, fəaliyyətsizdir. Artıq vəziyyət daha yaxşı olmalıdır. Olacaq da... Çünki bağçalar artıq icra hakimiyyətinin yox, Təhsil Nazirliyinin tabeliyindədir. Bu dəyişiklik özünü göstərməlidir".

**Çimnaz Şahlar**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1992



## Eyfel qülləsi paslanıb

Təmirə 60 milyon avro lazımdır

**Fransanın rəmzi Eyfel qülləsinin təmirə ehtiyacı var. Xarici mediada yer alan məlumata görə, qüllənin paslandığı məlum olub.**

Paris şəhər bələdiyyəsi bununla bağlı hesabat təqdim edib. Hesabatda qeyd edilir ki, illər ərzində Eyfel qülləsi nəzərəçarpacaq dərəcədə zərər görüb. Qüllənin dəmir konstruksiyaları paslanıb və bu, təhlükəlidir. Qüllənin təmirinə 60 milyon avro gərəkir. Təmir işləri 2024-cü il Paris Olimpiadasınadək başa çatmalıdır. Qüllə yenidən rənglənəcək, zərər görmüş hissələr yenilənəcək. Bu barədə Parisdə nəşr olunan "Marianne" dərgisində məlumat verilib. Hətta Eyfel qülləsində çaışanlardan birinin "qüllənin memarı indi onu ziyarət etsə, infarkt keçirər", dediyi də qeyd edilir.   Qeyd edək ki, Eyfel qülləsi XIX əsrin sonlarında Gustave Eiffel tərəfindən inşa edilib. Hündürlüyü 324 metrdir. Hər il qülləni 6 milyon insan ziyarət edir. Eyfel qülləsi dünyada turistlərin ən çox ziyarət etdiyi məkanlardan biridir. Təmir zamanı isə qüllə turistlərin ziyarətinə bağlanacaq. Bu isə külli miqdarda gəlir itkisinə səbəb olacaq.

**Məlahət**

## Daha böyük model axtarır

Ronaldo təyyarəsini 20 milyon funt sterlinqə satışa çıxarıb



**"Mançester Yunayted"in hücumçusu Kriştiano Ronaldo "Gulfstream G200" təyyarəsini satışa çıxarıb.**

Apasport.az saytının məlumatına görə, 37 yaşlı forvard bu satışdan 20 milyon funt sterlinq qazanmağı hədəfləyib.

Superulduz 2015-ci ildə aldığı təyyarədən Portuqaliyaya müntəzəm uçuşlar üçün istifadə edir. O, sevgilisi Corcina Rodriges və uşaqları ilə birlikdə tətil üçün tez-tez vətənə yollanırdı. Təyyarəyə 8-10 nəfərlik sərnişin yerləşsə də, Ronaldo daha böyük model axtarır.

*Qeyd edək ki, 2011-ci ildə cəmi 250 ədədi istehsal edilən "Gulfstream G200" təyyarəsinin maksimal sürəti 900 km/saatdır.*

## 1,4 milyard dollarlıq sərvət

**Rihanna ardıcıl üçüncü dəfə Amerikanın ən gənc milyarder qadını olub**



**Ulduz müğənni Rihanna 1,4 milyard dollarlıq sərvətlə ardıcıl üçüncü dəfə Amerikanın ən gənc milyarder qadını olub.**

**"Forbes"in öz sərvətlərini quran ən zəngin qadınlar siyahısında 21-ci yerdə olan Rihanna (32) ən gənc milyarder kimi diqqət çəkib.**

**Siyahıda yaşı 40-dan az olan yeganə milyarder olan Rihannanın 1,4 milyard dollarlıq sərvəti qismən musiqi karyerasından, qismən də üç pərakəndə satış şirkəti - "Fenty Beauty", "Fenty Skin" və "Savage X Fenty"dən qazanıb.**

**"Forbes"in siyahısında digər diqqətçəkən ad 1,8 milyard dollar sərvəti ilə Kim Kardaşyandır. Bundan əlavə, öz sərvətlərini quran milyarder qadınlar arasında Oprah Winfrey və Sheryl Sandberg də var.**

**Əvvəllər milyarderlər siyahısında olan Rihanna 2019-cu ildə "New York Times" qəzetinə heç vaxt sərvət qazanmağı planlaşdırmadığını və bu cür titulların onun işləməsinə mane olmayacağını açıqlamışdı. Rihanna, "Pul mənim üçün məqsəd deyil; həmişə başqasına kömək edə biləcəyim bir vasitə idi" deyib.**

**Turan**

## Mesut Özilin həyat yoldaşı yeni fotolarını paylaşıb



**"Miss Turkey - 2014"ün qalibi, aktrisa və model Amine Gülşe sosial şəbəkə hesabında yeni fotolarını paylaşıb.**

**Bizim media xəbər verir ki, o, ikinci övladına hamilədir.**

***Qeyd edək ki, aktrisa 2019-cu ildən məşhur futbolçu Mesut Özil ilə ailə qurub. Cütlüyün bir qızı var.***



# Qatil aya 100 min dollar qazanırdı

22 yaşlı cinayətkarın Donald Trampın qatı tərəfdarı olduğu ortaya çıxıb

**4 iyul Müstəqillik Günü ABŞ-ın Çikaqo ştatında silahlı hücum olub.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Çikaqonun ətrafındakı "Highland Park" ərazisində paradın başlamasından az sonra atəş səsləri eşidilib. "Highland Park" polisi insidentdə 6 nəfərin öldüyünü, 36 nəfərin yaralandığını açıqlayıb. Güllələnən şəxslərin 8-85 yaş arasında olduğu bildirilib. Hücumun isə 22 yaşlı Robert Crimo tərəfindən həyata keçirildiyi açıqlanıb. Hücumdan sonra polisin başlatdığı axtarış tədbirləri axşam saatlarında sona çatıb.

Cinayətkar Robert Crimo hadisənin baş verdiyi yerdən təxminən 8 kilometr şimalda saxlanılıb. Araşdırma nəticəsində məlum olub ki, Crimo "YouTube" hesabında zorakı musiqi videoları, o cümlədən silahlı hücumçunun polis tərəfindən öldürülməsini əks etdirən animasiya yerləşdirib.

ABŞ-ın keçmiş prezidenti Donald Trampın qatı tərəfdarı olduğu ortaya çıxan 22 yaşlı cinayətkarın 2020-ci ildə nümayişlərə qatıldığı bildirilib. Robert Crimo sosial şəbəkədə "Awake the Rapper" adı ilə çıxış edən rep ifaçısı imiş. Onlayn musiqi platformalarında minlərlə izləyicisi olan Crimonun ayda 100 min dollardan çox qazandığı bildirilir.

Mahnılarından birində məktəb qətliamlarından danışan Crimo "Məni heç nə dayandıra bilməz, hətta özüm belə" sözlərini oxuduqdan sonra dəbilqə və gülləkeçirməz jilet geyindiyi görünür.

Eyni gün ərzində Filadelfiya ştatında da silahlı hücum baş verib. Hücum edən şəxs hadisə yerində iki polis əməkdaşını güllələyib. Hücum edən şəxs hələ də axtarışdadır.

**Çimnaz Şahlar**





## Zəvvar piyada 6,5 min kilometr qət edərək Məkkəyə çatıb

İndi o, Həcc ziyarətinə hazırlaşır

**Britaniyalı zəvvar Adəm Məhəmməd piyada 6,5 min kilometr məsafə qət edərək Məkkəyə çatıb. İndi o, Həcc ziyarətinə hazırlaşır.**




Azərtac rəsmi SPA agentliyinə istinadla xəbər verir ki, 52 yaşlı britaniyalı zəvvar 11 ay və 26 gün ərzində Niderland, Almaniya, Çexiya, Macarıstan, Rumıniya, Bolqarıstan, Türkiyə, Livan, Suriya və İordaniya ərazilərindən keçərək Səudiyyə Ərəbistanına daxil olub. O, sutkada orta hesabla 17,8 kilometr məsafə qət edərək Məkkədəki Ayişə məscidinə çatıb. Burada britaniyalı zəvvarı yerli sakinlər və Londondan Həcc ziyarətinə gəlmiş iki qızı qarşılayıblar.

Adəm Məhəmməd bildirib ki, COVID-19 pandemiyasının tüğyan etdiyi ötən iki ildə müqəddəs Quran oxuyub və Həcc ziyarətinə getməyi arzulayıb. Britaniyadakı xeyriyyəçilər ona və iki qızına bu arzularını yerinə yetirməkdə yardım ediblər.



## Dünyada ilk...

Uşaqda meymunçiçəyi aşkarlandı

**Niderlandda ilk dəfə uşaqda meymunçiçəyinə yoluxma halı qeydə alınıb.**

Medicina.az xəbər verir ki, bu barədə ölkənin Milli Səhiyyə İnstitutunun məlumat yayıb.

"Niderlandda 352 nəfərdə meymunçiçəyi diaqnozu qoyulub"

Uşağın bu xəstəliyə necə yoluxduğu məlum deyil.

## Odessa limanında 6 milyon ton taxıl qalıb

Bir çox ölkələr problemdən çıxış yolları axtarır



**Rusiyanın Ukraynaya hərbi təcavüzü dünyada taxıl qıtlığına da səbəb olub.**

"Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, hazırda Ukraynanın Odessa şəhərinin limanlarında 6 milyon taxıl ehtiyatı saxlanılır. Bu barədə "Anadolu" Agentliyi xəbər verib. Xəbərdə bildirilir ki, Ukrayna hökuməti qlobal taxıl böhranının aradan qaldırılmasında Türkiyənin fəaliyyətini müsbət dəyərləndirir. Odessa bölgəsi üzrə müşavir Yuri Dimçenko Türkiyəyə göstərilən səylərə görə təşəkkür edib. Y.Dimçenko deyib ki, davam edən müharibə və dənizdəki minalar təhlükəsi Odessa limanlarını fəaliyyətsiz hala salıb. Limanlar bağlanıb. Bu da digər ölkələrə taxıl ixracında ciddi problemlər yaradır. Hazırda Odessa limanlarında milyonlarla ton taxıl qalıb. Mikolay şəhərinin limanlarında da taxıl qalmaqdadır. Ölkənin dəmiryolları depolarında, fermerlərin anbarlarında da taxıl ehtiyatı toplanıb. Lakin müharibə şəraiti taxılın ixracını ləngidir. Ukrayna Dunay çayı vasitəsilə az miqdarda taxılı Rumıniyaya, oradan da Polşaya ixrac edə bilir. Lakin çayda çox kiçik, 3-5 min tonluq gəmilər hərəkət edə bilir. Bu isə ölkələrin taxıl ehtiyacını ödəyə bilmir. Hazırda bir çox ölkənin Ukrayna taxılına ehtiyacı var. Ölkələr problemdən çıxış yolları axtarır. Bu işdə Türkiyənin səyləri isə yüksəkdir. Qeyd edilir ki, 24 fevraldan bugünədək Ukrayna limanlarında və anbarlarda ümumilikdə 20 milyon ixraclıq taxıl qalmaqdadır.

**Məlahət**

## Ağcaqanadlar viruslar yayır

Hər il 50 milyondan çox insan yoluxur



**Çin alimləri Denge və Zika viruslarını yayan üzərində apardıqları araşdırmada heyrətamiz fakt aşkar ediblər.**

Bu xəstəlik yayan ağcaqanadlar daşıdıqları virusları yaymaq üçün bədənimizlə oynayırlar.

*Qeyd edək ki, qızdırma, səpgi və bəzən ölümə səbəb olan dang virusu tropik bölgələrdə ağcaqanadlar tərəfindən yayılır və hər il 50 milyondan çox insan yoluxur.*

## Eşq yaşadıqları üzə çıxdı

Aktrisa repçi Çakalla sevgili olub



**Sonuncu dəfə "Aşk mantık intikam" serialında rol alan aktrisa Melisa Döngel yeni eşqə yelkən açıb.**

Axsam.az xəbər verir ki, aktrisa repçi Çakalla sevgili olub.

Cütlüyün münasibətlərini gözlərdən uzaq yaşamaq istədiyi öyrənilib.